www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 iyun 2016-cı il Çərşənbə № 141 (6462) Qiymәti 60 qәpik

**Xəbər**

## Marketlərdə təhlükəli Rusiya südləri satılır

yazısı səh.2-də

**Gündəm**

### 06.15Moskvada İbrahimbəyovla ilginc Milli Şura müzakirələri




Cəmil Həsənli və AXCP funksioneri Sahib Kərimli Rusiya paytaxtında Milli Şuranın fəxri sədri ilə görüşüb; kinorejissor Azərbaycandakı siyasi durumla bağı nə danışıb?

yazısı səh.5-də

### Manat "üşüyür", dollar "qızışır"...

yazısı səh.12-də

### Roma Papasının açıqlamalarına Azərbaycandan sərt reaksiyalar

yazısı səh.11-də

### Göyçayda saxta pul kəsən dəstə tutuldu

yazısı səh.12-də

### Ankara-Moskva barışığı - kim uddu, kim uduzdu?

yazısı səh.8-də

### Samir Şərifova Mərkəzi Bankdan müavin gətirildi

yazısı səh.12-də

### Sabiq nazirin Naxçıvanda daha bir işgəncə faktı ortaya çıxdı

yazısı səh.5-də

### Özünü asan polkovniklə bağlı daha bir mübhəm

yazısı səh.10-da

### Bazarlarda saxta sular tüğyan edir

yazısı səh.14-də

### Azərbaycanda "şortik məsələsi"...

yazısı səh.11-də

### NİDA-dan istefalar

yazısı səh.13-də

**Ramazan ayının 23-cü günü**

**İftar 20.32 İmsaq 03.11-dək (QMI)**

**23-cü günün duası: "İlahi, bu gün mənim günahlarımı təmizləyib, çirkin və eyibli işlərdən pak et! Qəlbimi belə bir gündə qəlblərə aid olan təqva ilə imtahan et! Ey, günahkarların tövbəsini Qəbul Edən!"**

**İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".**

**ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!**

## Neva sahillərindəki qapalı danışıqların yeni detalları

# PUTİNİN MƏXFİ VƏ ARALIQ QARABAĞ PLANI - 5 RAYON ƏVƏZİNƏ...

Masa üzərində mərhələli variantın odluğu təsdiqlənir; Levon Ter-Petrosyanı hakimiyyətdən salan 1997-ci il sülh planı geri qayıdır ; **erməni qaynağı:** "Referendum qeyri-müəyyən müddətə saxlanılacaq"; Bakı isə "ikinci erməni dövlətinin yaranmasına imkan verilməyəcək" deyir...




yazısı səh.9-da

## Türkiyə və Rusiya barışdı, Azərbaycanın önəmi artdı, prezident Əliyevə təşəkkür edildi...

Rusiya prezidenti 7 aylıq fasilədən sonra bu gün türkiyəli həmkarına zəng edəcək; köhnə tərəfdaşlar arasında buzlar sürətlə əriyir

yazısı səh.6-da



*Aqil Abbas:*

### "Qan içindəydim, elə bildim ölmüşəm"

yazısı səh.7-də



### Deputat Zahid Oruca töhmət verildi - ara qarışdı

yazısı səh.4-də



### Baş nazir "kredit oliqarxları"nın əmlakını satışa çıxardı

yazısı səh.2-də



## Lavrov iyulun 4-də İrəvana səfər edəcək

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyulun 4-də İrəvana səfər edəcək. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Rusiya XİN sözçüsü Mariya Zaxarova ənənəvi brifinqdə bildirib.**

Onun sözlərinə görə, rusiyalı nazir iyulun 4-də İrəvanda keçiriləcək Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin XİN başçılarının iclasında iştirak edəcək: "İclasda beynəlxalq terrorçuluqla birgə mübarizə məsələləri əsas müzakirə mövzusu olacaq".

## Turizm və Menecment Universitetinə rektor əvəzi

**Azərbaycan Turizm və Menecment Universitetinin rektor əvəzi təyin olunub. APA-nın xəbərinə görə, təhsil naziri Mikayıl Cabbarovun əmri ilə universitetin prorektoru Eldar Aslanov rektor əvəzi təyin edilib.**

E. Aslanov APA-ya xəbəri təsdiqləyərək qeyd edib ki, növbəti təyinata kimi rektorun səlahiyyətlərini icra edəcək.

Qeyd edək ki, bir müddət öncə prezidentin sərəncamı ilə Cəfər Cəfərov Azərbaycan Turizm və Menecment Universitetinin rektoru vəzifəsindən azad edilərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru təyin edilib.

## Telefonlara narkotiklə bağlı SMS-bildirişlər gəlir

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq sağlam həyat tərzinin təbliği ilə bağlı bildiriş və zəruri əlaqə vasitələri sms vasitəsilə mobil rabitə abunəçilərinə göndərilir.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası məlumat verib.

Telefonlara göndərilən SMS-məlumatlarda "Gələcəyinizi düşünün, özünüzü və yaxınlarınızı narkomaniyadan qoruyun" bildirimləri gəlir. İyunun 3-cü ongünlüyündən başlayan SMS maarifləndirmə mərhələli qaydada həyata keçiriləcək və təqribən 1,5 milyon abunəçiyə ünvanlanacaq.

## Qəbələdə 3 min il yaşı olan kurqan aşkarlandı

**Qəbələ rayonunun Dızaxlı kəndi ərazisində aparılan arxeoloji qazıntılar zamanı 3000 il yaşı olan kurqan aşkar edilib. APA-nın xəbərinə görə, AMEA-nın müxbir üzvü, Arxeologiya və Etnoqrafiya İnstitutunun antik dövr arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor İlyas Babayevin rəhbərliyi ilə aparılan arxeoloji araşdırmalar zamanı bu kurqanın eramızdan 1000 il əvvəl Qəbələ ərazisində yaşayan qəbilələrin, tayfaların başçısının kurqanı-yəni dəfn edildiyi yer olduğu məlum olub.**

Diametri 35 metr olan kurqanın dəfn kamerası 4 metr daş və 3 metr torpaq qatı altından aşkarlanıb.

İ. Babayev qeyd edib ki, 1971-ci ildə həmin ərazidə arxeoloji qazıntılar zamanı iki ədəd xırda kurqan aşkar edilib. Həmin kurqanlar açılanda oradan böyük dəfinə tapılıb. Alimlər bu dəfinəni analiz edərək, Azərbaycan ərazisində pul sikkələrinin çap olunduğunu və yerli xalqların 3000 il əvvəl beynəlxalq ticarətə qoşulduğunu təsdiqləyiblər.

İ. Babayev ərazidə araşdırmaların davam etdiriləcəyini bildirib.

Qeyd edək ki, yeni tapılan tayfa başçısının kurqanı isə Azərbaycan və Koreya arxeoloqlarından ibarət beynəlxalq ekspedisiya tərəfindən öyrəniləcək.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Marketlərdə təhlükəli Rusiya südləri satılır

## Ekspertlər süd bazarının ciddi problem içində olduğunu vurğulayırlar, çünki...

**Bir neçə gün əvvəl Rusiyanın Fitosanitar Xidməti ölkədə süd məhsullarının saxtalaşdırılması ilə bağlı apardığı detallı araşdırmanın nəticələrini yayıb. Qurumun yaydığı press-relizdə deyilirdi ki, Rusiyada süd istehsalçıları məhsulun maya dəyərini azaltmaq yolu ilə qanunsuz gəlir əldə etmək üçün südə su, nişasta, təbaşir, sabun, soda, əhəng, bor və salisil turşuları və hətta gips əlavə edirlər.**

Qeyd edək ki, Azərbaycana da Rusiya istehsalı olan süd və süd məhsulları gətirilir. Hətta Rusiya Federasiyasının Federal Baytarlıq və Fitosanitar Nəzarəti Xidmətinin ("Rosselxoznadzor") əməkdaşlarının Rusiyaya məhsullarını ixrac etmək istəyən müəssisələrin təftişi üçün Azərbaycana səfər etməsi gözlənilir. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin müfəttişlik sektorunun rəhbəri Tofiq Atazadə "Trend"ə bildirib ki, "Rosselxoznadzor" əməkdaşlarının səfərlərinin dəqiq tarixi hələ məlum deyil: "Eyni zamanda qeyd etmək istəyirəm ki, səfər öz aktuallığını itirməyib, çünki öz məhsullarının ixracı üçün Rusiyada sertifikasiyadan keçmək istəyən bəzi şirkətlər var".

Sözügedən xəbərin ictimailəşməsindən sonra da Rusiya istehsalı olan südlər Bakının iri və kiçik marketlərində satılmaqda davam edir. Paytaxtın marketlərində daha çox "Savuşkin" və "Domik v derevne" südləridir. "Savuşkin" südlərinin litri 2,60-2,70 manata, "Domik v derevne" isə 2,75-2,80 manata satılır. Həmçinin marketlərdə Ukrayna və Litvadan gətirilən südlər də satılır. Südlərin qablaşdırılmasında onların təbii süddən ibarət olduğu vurğulanır.







**Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ölkəyə gətirilən südlərin tərkibini yoxlamaq imkanları yoxdur:** "Bu südlərin tərkibini dövlət orqanları yoxlayır və sertifikat verir. Biz də çalışırıq onların açıqlamasına inanaq. Ölkədə satılan süd və süd məhsullarının tərkibində ciddi problemlər var. Məsələn, "İvanovka" südü adı altında istehsalçılar aldadılır. "İvanovka" dükanlarında satılan məhsulların əksəriyyəti saxtadır. Xaricdən gətirilən süd məhsullarının keyfiyyətində problem olması barədə ciddi və çoxsaylı iddialar var. Onların böyük yararlılıq müddəti var və bu, o deməkdir ki, tərkibinə çoxsaylı kimyəvi maddələr qatılır. Kimyəvi məhsullar da insanların ömrünü qısaldır. Lakin nə etmək olar, müvafiq dövlət orqanları sertifikat verir, hər şeyi qanuniləşdirir. Biz bu sahədə ciddi tədqiqat aparmamışıq. Amma süd məhsulları bazarı təxminən sərinləşdirici içkilər bazarından sonra ən çox çirklənmiş sahədir. Bizim laboratoriya isə ləğv olundu. Çünki orada işləməyə mütəxəsis tapa bilmədim. Ekspertiza, saxta sənəd verməyə meyllidirlər. Ona görə işləyən adamlar tapa bilmədik. Ekspertiza sahəsində çətinlik var ölkədə".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

## Bakıda 5 nəfər qarpızdan zəhərləndi

**"Həftə ərzində 5 nəfər qarpızdan zəhərlənmə diaqnozu ilə bizə müraciət edib".**

Bu barədə azvision.az-a Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov deyib.

O qeyd edib ki, hələki qarpız və yemişdən zəhərlənmələrlə bağlı kütləvi hal müşahidə edilməyib: "Müraciət edənlərə kömək göstərilib. Hələki xəstəxanada yatan və halı ağırlaşanlar olmayıb. Eyni zamanda iki nəfər çiyələkdən zəhərlənmə ilə bağlı müraciət edib ki, onlara da yardım edildikdən sonra evə buraxılıblar".

A.Maqsudov bildirib ki, iyun ərzində 14 nəfər ilan sancması, 4 nəfər əqrəb sancması, 1 nəfər qara qurdla (hörümcək növü) bağlı onlara müraciət edib. O vurğualyıb ki, bu müddət ərzində müşahidə edilən zəhərlənmə halları ilə bağlı ölüm halı qeydə alınmayıb.

## Xədicə İsmayılın kasasiya şikayəti təmin edilməyib



**İyunun 28-də Ali Məhkəmədə araşdırmaçı jurnalist Xədicə İsmayılın Elman Türkoğlunun ona qarşı iddiası ilə bağlı iş üzrə məhkəmə prosesi keçirilib. Bu barədə virtualaz.org saytına vəkil Yalçın İmanov məlumat verib.**

Vəkil bildirib ki, prosesdə Xədicə İsmayıl çıxış edərək, barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

Bundan sonra vəkillər ləvğ edilmiş MTN-in Antiteror Mərkəzinin rəhbəri Elçin Quliyevin şahid qismində dindirilməsini istəyiblər. Onlar bildiriblər ki, məhkəmə zamanı həmin mərkəzdən Binəqədi Rayon Məhkəməsinə sənədlər göndərilib və sübutlar siyahısına daxil edilib.

Məhkəmə vəsatəti təmin etməyib. Prosesdə qərar elan edilib. Qərara əsasən, Xədicə İsmayılın kasasiya şikayəti təmin olunmayıb.

Xatırladaq ki, E.Türkoğlu X.İsmayılı onun şərəf və ləyaqətini təhqir edib böhtan atdığı iddiası ilə məhkəməyə müraciət etmişdi.

Binəqədi Rayon Məhkəməsi jurnalisti 2500 manat cərimələmişdi. Bu il iyun ayında Xədicə İsmayıl bu iş üzrə Milli Məclisin elan etdiyi aministiyaya düşmüşdü.

X.İsmayıl 2500 manat həcmində cəriməni ödəməkdən azad edilib.

## Moldova klubu və prezidenti Azərbaycandan üzr istədi

**Moldovanın "Daçiya" klubu rəsmi saytında Bakının Mərdəkan qəsəbəsi barədə yer alan yanlış fikirlərlə əlaqədar "Kəpəz"dən və Azərbaycan xalqından üzr istəyib. Virtualaz.org-un məlumatına görə, üzrxahlıq mətni şəxsən klub prezidenti Adlan Şişxanov adından da yayılıb.**

Şişxanov "Daçiya"nın mətbuat xidməti tərəfindən buraxılmış səhvlə əlaqədar səmimi üzrxahlıq edib: "Mən həmçinin, bütün Azərbaycan xalqı, azarkeşləri və "Kəpəz" qarşısında üzr istəyirəm. "Daçiya" heç vaxt siyasətlə məşğul olmayıb. Bu kobud və ağlasığmaz qəbahətlə bağlı bizi bağışlamağınızı xahiş edirik. Biz heç bir halda heysiyyətə toxunmaq istəməzdik".

**Klub və rəhbərlik bildirir ki, belə yanlış məlumat verməklə heç bir sətiraltı və gizlin təxribat niyyəti güdməyiblər:** "Biz Bakıya bunun üçün gəlməmişik. Bununla yanaşı, istisna etmirik ki, bizə düzgün informasiya verilməyib. Sözsüz ki, biz rəqibimizə və bütün Azərbaycan xalqına hörmətlə yanaşırıq. Ona görə də xoşagəlməz insidentlə əlaqədar üzrxahlığı vacib sayır və ümid edirik ki, bu, ənənəvi dostluq münasibətlərimizə təsir etməyəcək".

Üzrxahlıq mətni ilə yanaşı, klubun saytı Mərdəkan barədə yanlış mətndə düzəliş edib.

Qeyd edək ki, "Kəpəz"lə oyun öncəsi "Daçiya"nın rəsmi saytında "Dalğa Arena"nın Bakıdan 34 km aralıda "erməni adı olan "Makrudyan" qəsəbəsi"ndə yerləşdiyi bildirilib. Yazıda bildirilib ki, Mərdəkanda ermənilərə aid heç nə yoxdur. Sakinlər isə Qafqaz farslarının davamçıları olan tatlardan ibarətdir.

## Təmiz Şəhər" ASC-yə yeni rəhbər təyin olunub

**"APA-Economics" xəbər verir ki, Etibar Abbasov ASC-nin İdarə Heyətinin sədri olub. Bunadək E. Abbasov İdarə Heyətinin sədr müavini kimi çalışıb.**

Qeyd edək ki, E. Abbasova qədər dövlət şirkətinin rəhbəri Zakir İbrahimov olub. O, ölkə başçısının müvafiq sərəncamı ilə yeni yaradılan "AzerGold" ASC-nin İdarə Heyətinin

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

**NİDA vətəndaş hərəkatı daxilində yarım aydır davam edən gərginlik səngimək bilmir. İstefalar bir-birinin ardınca reallaşır. İndiyə qədər 10-dan çox üzv hərəkatın sıralarını tərk edib. Getdikcə narazılıqlar dərinləşir.**

# NİDA-dan istefalar

## Hərəkatın daxilində nələr baş verir? **Rəşadət Axundov:** "Gələnlər olduğu kimi, gedənlər də olacaq"

NİDA üzvü Anar Abdullanın istefasından sonra münasibətlər kritik həddə çatıb. Onun təşkilatdan uzaqlaşmasına məcbur edildiyini düşünən narazılar çıxış yolunu getməkdə görüblər. A.Abdulla ətrafında söhbətlər etik çərçivəyə sığmadığı üçün məsələni açıq şəkildə qeyd etmirik. Amma hərəkatda günlərdir cərəyan edən narazılığın məhz onun bir nalayiq hərəkətindən qaynaqlandığı artıq məlumdur.

Bu narazılıqların fonunda digər problemlər ortaya çıxıb. Təşkilatın hazırkı idarə heyətinin fəaliyyətindən razı qalmayanlar keçmiş NİDA-çı məhbuslar - Rəşadət Axundov, Zaur Qurbanlı, Rəşad Həsənov başda olmaqla, yeni idarə heyətinin formalaşmasını tələb edirlər. Mövcud idarə heyətinin qalmasının tərəfdarı olanlar da var. Qurumun iyunun 26-da Müsavatın qərargahında keçirdiyi qapalı toplantıda da bu tələblər səslənməklə yanaşı, A.Abdulla və onun istefasından sonra yaranan narazılıq müzakirə edilib. Daxili mənbələrdən aldığımız məlumata görə, toplantı qarşıdurmalarla keçib və ciddi bir nəticə əldə olunmayıb. Məhz bunun nəticəsində NİDA təcili idarə heyətinin növbəti toplantısını çağırıb. Növbədənkənar toplantı iyunun 29-da olacaq. Bu barədə NİDA-nın qapalı səhifəsində məlumat verilib.



Son olaraq, təşkilatın üç ay öncə həbsdən çıxan üzvü Ömər Məmmədov istefa verib. O, facebook səhifəsində belə bir status paylaşıb: **"NİDA vətəndaş hərəkatından istefa verirəm. Həyasızlarla bir təşkilatda ola bilmərəm".**

Statusdakı bu cümlələr qurumun gələcək baxımından taleyinin ürəkaçan olmadığını göstərir.

Təşkilatdan gedişi ilə bağlı Ö.Məmmədovun fikirlərini almağa çalışsaq da, mümkün olmadı. O, bunun qurumdaxili məsələ olduğunu bildirdi.

**Rəşadət Axundov** idarə heyətinin dəyişdirilməsi və onun namizədliyinin irəli sürülməsi tələblərinin doğru olmadığını söylədi: **"Təşkilat daxilində bəzi məsələlərlə bağlı anlaşılmazlıqlar ola bilər. Bu normal haldır. Hərəkata gələnlər olduğu kimi, gedənlər də olacaq. Bəzi üzvlər arasında narazılıq olub və buna görə təşkilatdan istefa veriblər. Buna normal yanaşıram".**

Rəşadət bəy keçmiş məhbus yoldaşının NİDA-dan istefasına da münasibət bildirdi: **"Ömərin getməsinə təəssüflənirəm. O, sınaqdan çıxmış bir dostdur. Amma bu şəxsi qərardır. Təəssüflənməyimiz heç nəyi dəyişmir. İnanıram ki, hər şey onun üçün yaxşı olacaq. Uğurlar arzulayıram".**

Narazılıqların mərkəzi nöqtəsində adı keçən NİDA rəhbərlərindən olan **Ülvi Həsənli** bir neçə nəfərin istefasını hadisəyə çevirməyin doğru olmadığını düşünür: **"NİDA elə bir təşkilatdır ki, yaşının az olmasına baxmayaraq, indiyə qədər onlarla çıxan olub, ondan qat-qat artıq da hərəkat sıralarına qoşulanlar olub. NİDA həmişəki kimi öz yolundadır, işlərimizə, fəaliyyətimizə davam edirik. Hərəkatdan çıxanlar da olacaq, gələnlər də olacaq. Son baş verənlər əsasən daxili məsələlərdir. Ehtiyac olsa, ictimaiyyətə ayrıca geniş açıqlama verəcəyik".**

Üzvlər arasındakı gərgin münasibətlərdə adı hallanan **Məcid Mərcanlı** keçmiş NİDA-çı məhbusların rəhbərliyə gəlmələrinin hamının istəyi olduğunu qeyd etdi: **"NİDA-nın 5 illik tarixində yüzlərlə üzv olub. Hərə bir səbəbdən çıxıb, amma NİDA dağılmayıb. Bundan sonra da dağılmayacaq. Keçmiş məhbusların rəhbərliyə gəlməsi məsələsində elə bir fikir formalaşmamalıdır ki, kimlərsə bunu istəyir, ya yox. Onların rəhbərlikdə olmasını hamı istəyir. Amma istəyimiz heç nəyi həll etmir. Digər məsələlər hərəkatın daxilində baş verdiyi üçün açıqlaya bilmərəm. Yaxın günlərdə bu problemlər bitəcək".**

❑ **Cavanşir ABBASLI**



Frank Valter Ştaynmayer

# ATƏT sədri Bakıya gəlir

**İyunun 29-da Almaniyanın federal xarici işlər naziri Frank Valter Ştaynmayerin Cənubi Qafqaza üç günlük səfəri başlayacaq və nazir Ermənistan, Azərbaycan və Gürcüstanda səfərdə olacaq.**

Bu barədə APA-ya Almaniyanın Azərbaycandakı səfirliyindən məlumat verilib.

Səfər Almaniyanın ATƏT-ə sədrliyi çərçivəsində baş tutacaq.

"İrəvan və Bakıda siyasi görüşlərin əsas mövzusu Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının müzakirəsidir. Bundan başqa, Ştaynmayer 1 iyul tarixində Tiflisdə ATƏT-in Parlament Assambleyasının illik iclasının açılışında iştirak edəcək və bununla ATƏT-də parlament sisteminin rolunun gücləndirilməsinə töhfəsini verəcək.

Ştaynmayeri Gürcüstanda yüksək səviyyəli mədəniyyət və iqtisadiyyat üzrə nümayəndə heyəti müşayiət edəcək", - deyə məlumatda bildirilir.

Qeyd edək ki, səfər Ermənistandan başlanacaq. Azərbaycana səfər iyunun 30-na nəzərdə tutulur.

# Avropa İttifaqı Azərbaycana 7,2 milyon avro ayırdı

**Avropa İttifaqı (Aİ) Kənd İnkişafını Dəstəkləmə Proqramı (RDSP) çərçivəsində kənd yerlərinin inkişafı üçün Azərbaycana 7,2 milyon avro ayırıb.**

Virtualaz.org bildirir ki, bu barədə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin mətbuat xidmətindən məlumat verilib.

Layihə ərzaq təhlükəsizliyinin, qida məhsullarının təhlükəsizliyinin və fitosanitar nəzarətin təmin olunması vasitəsilə regionlarda kənd təsərrüfatının inkişafı üçün islahatların həyata keçirilməsini nəzərdə tutur.

Proqram çərçivəsində Aİ Azərbaycanın Kənd Təsərrüfatı, İqtisadiyyat, Sənaye, Fövqəladə Hallar, Səhiyyə nazirlikləri, Dövlət Statistika Komitəsi və s. ilə əməkdaşlıq edəcək.

# Eldar Mahmudovun "meyiti" niyə tapılmadı?

## Sabiq nazirin ölüm xəbəri təkzib edilsə də, onun harada olmasını kimsə bilmir...

**Eldar Mahmudovun həbs xəbərlərinin ardından onun ölümü haqda iddialar da təsdiqlənmədi. 1 il əvvəl meydan sulayan, sahibkarlara, dövlət qurumlarının rəsmilərinə qan udduran milli təhlükəsizlik nazirinin öldü-qaldısından rəsmi xəbər yoxdur. Onun ölüm xəbəri yayılanda həyat yoldaşı Tahirə Mahmudova dedi ki, ərinin səhhətində problemlər var, Eldar Mahmudovun ölüm xəbəri yalandır.**



Eldar Mahmudov

Amma yenə də müəmmalar davam edir; məlum deyil ki, sabiq nazir haradadır. O, səhhətindəki problemlərin aradan qaldırılması harada, hansı həkimlərə etibar edib. Fakt odur ki, 2015-ci il oktyabrın 17-də milli təhlükəsizlik naziri vəzifəsindən çıxarılan Eldar Mahmudovun bu günə qədər harada olduğu bilinmir. Ara-sıra onun həbsi, xarici mətbuata məlumatlar ötürməsi xəbərləri üzərindən sabiq nazirin sağ olması haqda nəticələr çıxarmağa əsas verən məlumatlar yayılır. Bəlkə həmin məlumatlar bilərəkdən yayılır?..

Eldar Mahmudovun qəfil "ölümü" sosial şəbəkələrdə də geniş müzakirə mövzusuna çevrilmişdi. Nazirin öldüyü haqda xəbərləri onun aradan götürülməsinə görülən hazırlıq kimi qiymətləndirənlər də az deyildi.

Hətta belə iddialar da vardı ki, Eldar Mahmudov ölüb, onun meyitini gizli şəkildə Naxçıvana aparıb orada dəfn ediblər. Sabiq nazirin Naxçıvanda dəfn edilməsi muxtar respublikada qohumlarının-yaxınlarının məzarlarının olması ilə izah olunurdu. Sabiq nazirin gizli şəkildə dəfn edilməsi isə onun düşmənlərinin məzarına ziyan vura bilməsi ehtimalı ilə əlaqələndirilirdi...

Məsələ ondadır ki, Eldar Mahmudov 2004-cü ildə vəzifəyə təyin ediləndən sonra onun düşmənlərinin sayı durmadan artıb. Günahı, suçu pul qazanmaq olan iş adamlarını Eldar Mahmudovun hüzuruna aparıb döyüblər, işgəncə veriblər, ailələrini dağıdıblar. Bütün bunlar 1 məqsədə xidmət edib - pul qoparmaq. Və illər ötdükcə iştah artıb, nahaq yerə döyülənlər, həbsə atılanlar, şikəst, zəlil gününə salınanlar çoxalıb, orduya çevrilib. 2015-ci il oktyabrın 17-də verilən qərarı həmin adamların sırasından sağ qalanlar illərcə gözləyiblər. Bu adamlar Eldar Mahmudovun üzərində ədalətli məhkəmə gözləntilərinin doğrulacağı bir vaxtda onun ölüm xəbəri gəlib. Belə bir şəraitdə sabiq nazirə yönələn qəzəb, kin-küdurət əsəbləri tarıma çəkilmiş, milyonları əlləri̇ndən çıxmış, bir anın içində həyatın dibinə atılmış insanların diqqətini sabiq nazirin ölümünə yönələ bilərdi...

Yada salaq ki, 2004-cü ildə vəzifəyə təyin ediləndən 7-8 ay sonra, 2005-ci ilin martında Eldar Mahmudovun rəhbərliyi ilə "Qara Kəmər" əməliyyatı həyata keçirildi. Həmin əməliyyatla illərlə bağlı qalan adam oğurluqları və sifarişli qətl işlərinin bir qisminin üstü açıldı. Əməliyyat E.Mahmudovun özünü milli təhlükəsizlik naziri kimi təsdiqləməsinə, qara kəmərini açıb kreslosunda əsaslı şəkildə oturuşmasına, qara əməllərini həyata keçirməsinə yol açdı. Məlum oldu ki, adam oğurlayan bandaya DİN-in zabiti olmuş Hacı Məmmədov rəhbərlik edib. Həmin Hacı Məmmədov məhkəməsində bir epizod üzrə danışarkən fikrini "ətdirsə, pişik hanı, pişikdirsə, ət hanı" sualı ilə davam etdirmişdi. Eldar Mahmudovun şəxsi arestantına çevrilmiş Hacı Məmmədovun bu sualını bir qədər başqa formada söyləsək, "ölübsə, meyiti hanı, diridirsə, hardadır" şəklində verə bilərik...

❑ **E.HÜSEYNOV**



# Spiker niyə Zahid Oruca su çəkdirmir?

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Onun "qənimi" dostumuz Pənah Hüseyn idi. Mikrofonu söndürəndə də Pənah bəyi susdura bilmirdi, uca səsi ilə sonadək danışırdı və nəhayətdə əlindəki sənədləri aparıb düz spikerin masasının üzərinə qoyurdu ki, götür oxu, gör, burada nə yazılıb. Axı Pənah Hüseyn başa düşür, fərqindədir (idi) ki, parlament susmaq üçün yox, məhz danışmaq, fikir mübadiləsi, hətta gərəkəndə, xalqın maraqları tələb edəndə mübahisə etmək üçün bir məkandır, tribunadır.**

Şükür Allaha, daha parlamentdə "sözə baxmayan müxalifətçi deputat"lar yoxdur. Çox maraqsızlaşıb parlament, heç kim deputatının fəaliyyəti ilə maraqlanmır. Milli Məclisdə 3-4 müxalifətçi statuslu deputat var, onlar da çox nadir hallarda danışmaq imkanı əldə edirlər, bu zaman da dəngələri (haqlı olaraq) pozmadan, belə demək mümkünsə, spikerin acı sözlərini eşitməmək üçün çox da ziddinə getmirlər məsələlərin. Hansı ki, onlar xalqın taleyüklü məsələləridir və ətrafında dartışmalar olmalıdır...

Beləcə, parlament öz ənənəvi, klassik və konstitusion funksiyasını de-fakto itirib. Çox hörmətli spiker Oqtay Əsədov parlamenti təxminən "Azərsu" kimi idarə edir; deyir ki, bura söz güləşdirmək yeri deyil, nə deyildi, ancaq "bəli", "xeyir", "baş üstə", "oldu", "yes" cavabını verib, oturmaq lazımdır yerində. Sanki bura QSC-dir, polis idarəsidir, hərbi hissədir, yalnız verilən tapşırıqlar, əmrlər icra olunmalıdır. Hələ şükür ki, deputat Zahid Oruc Milli Məclisin son iclasında "taxfree" sisteminin tətbiq olunması ilə bağlı ehtiyatlı olmağa çağıranda və mübahisə düşəndə, bir Milli Məclis üzvü kimi öz fikirlərini söyləyəndə Oqtay müəllim onu yerindən qaldırıb, Bərdənin Kələntərli kəndinə su sistemi çəkmək üçün yollanmağı əmr etmədi...

Zahid müəllim şükür eləsin ki, O.Əsədovun ona (deputata!) "sən artıq həddini aşıbsan, özünü aparmağı bacarmırsan... Sənin özünü aparmaq qabiliyyətin yoxdur. Sənin aparmaq qabiliyyətini gördüm. Çox səviyyəsiz..." kimi sözlərlə və daha sonra (iyunun 28-də) İntizam komissiyasının iclasında töhmət verilməsi ilə canını qurtarıb...

Hətta mühafizəçiləri çağırıb deyərdi ki, bunu buradan götürün, aparın qoyun Vergilər Nazirliyinin qarşısındakı parka, orada oturub çay içsin, "taxfree" davasını orada eləsin, bura bir də gələndə buraxmayın zala. Oqtay müəllim köhnə kişilərdəndir, ona görə bu cür cəza metodlarından da istifadə edə bilərdi...

Tanıyanlar deyir ki, Oqtay Əsədov çox səmimi adamdır, o, ərk edib Zahidi Orucun mandatını əlindən alıb seyfində də saxlaya bilər, ürəyi istəyəndə özünə qaytarar.

Hər zaman demişəm. Səmimi adamları qorumaq lazımdır, onlar bu ölkə üçün bir tapıntıdır. Gələcək nəsillər tarix kitablarından, xalq yaradıcılığından 2005-201... (neçəncisə) illərdə parlament sədrinin Milli Məclisi necə sükut meydanına döndərdiyini öyrənəndə heyrətə gələcəklər...

Allah Murtuz Ələsgərova rəhmət eləsin, onun dövründə deputatlar bütün günü danışırdılar, ağız deyəni qulaq eşitmirdi, mübahisə də edirdilər. Rəhmətlik də uzağı "xahiş edirəm, əyləşin", "Bir də çox danışsanız mikrofonu söndürəcəm" kimi sözlər deyib, yola verirdi...

Dəyərli Oqtay müəllimin spikerlik etdiyi dövrün parlament tarixini gələcəkdə - tutaq ki, 10 il sonra araşdıran olsa, çaşıb qalacaq. Məsələn, o adam heç cür fikirləşib bir qərara gələ bilməyəcək ki, əgər deputatı xalq seçirsə, parlament səs hesabına formalaşırsa, niyə burada deputatlara danışmağa imkan verilməyib, səslərini çıxarmağa qoymayıblar? Amma biz çox xoşbəxt adamlarıq ki, bu tarixi canlı yaşayırıq və bilirik ki, niyə belədir. Ona görə belədir ki, bizdə parlament QSC üsul-idarəçiliyi ilə idarə olunur.

Yəqin bu yazım gələcəkdə tarixçilərin işinə yarayacaq...

**İyunun 28-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib. Bu barədə asvizion.az-a komissiyanın sədri Ağacan Abıyev məlumat verib. O bildirib ki, iclasda Milli Məclisin iyunun 24-də keçirilən son növbədənkənar sessiyasında deputat Zahid Orucla spiker Oqtay Əsədov arasında baş vermiş mübahisəyə baxılıb və deputata töhmət verilib.**



# Deputat Zahid Oruca töhmət verildi-ara qarışdı

## YAP-dan və müxalifətdən ilkin reaksiyalar gəldi; Milli Məclis Bərdədən gələn etiraza reaksiya verdi; cəzalandırılan deputat isə susmağa üstünlük verir

Qeyd edək ki, parlamentin iyunun 24-də keçirilən növbədənkənar sessiyasında spiker Oqtay Əsədovla deputat Zahid Oruc arasında mübahisə düşüb. Vergi Məcəlləsinə təklif edilən dəyişikliklə bağlı müzakirələrdə, millət vəkilinin çıxışı saxlanılıb, o isə buna etiraz edərək danışmaq istədiyini bildirib. Spiker ona irad tutaraq deyib ki, Z.Oruc hər dəfə mövzudan kənar məsələlərə toxunur. Bundan sonra deputatla spiker arasında mübahisə düşüb. Spiker deputata sərt şəkildə irad bildirərək onunla bağlı araşdırma aparmaq üçün Milli Məclisin İntizam komissiyasının sədri Ağacan Abiyevə tapşırıq vermişdi. Komitə sədri özü isə jurnalistlərə açıqlamasında demişdi ki, "Milli Məclis üzvünün Milli Məclis sədri ilə söz güləşdirməsi qəbuledilməzdir". A.Abiyev əlavə edib ki, Milli Məclis sədrini Milli Məclisin üzvləri seçib: "Spikerin vəzifəsi Milli Məclisin iclaslarını idarə etməkdir. Milli Məclis sədri deputatın mövqeyini müdafiə də edə, razı olmaya, irad bildirə bilər. Oqtay Əsədov həm də Zahid Orucdan yaşlıdır. Zahid Oruc kimi cavan deputat bu amilləri nəzərə alaraq, Oqtay Əsədovla söz güləşdirməməli, elə reaksiya verməməli idi".

Deputatın barəsində sərt qərar veriləcəyi gözlənilmirdi. Çünki A.Abiyev Z.Orucun komissiyaya dəvət olunacağını, 12 komissiya üzvünün iştirakı ilə keçiriləcək toplantıda ona sadəcə tövsiyələrin veriləcəyini demişdi. Ancaq barəsində töhmət qərarı çıxan Z.Orucun telefonu söndürülüdüyündən onunla əlaqə saxlayıb münasibətini ala bilmədik. Bundan əvvəl isə o, "nizamnamədən kənar heç kəsə qarşı heç nə etməmişəm. Bunu kimsə başqa cür düşünürsə, bu, mənim problemim deyil" söyləmişdi. Onu da xatırlatmışdı ki, üstündə mübahisə düşən qanunun lehinə çıxış edənlərdən biri də özü olub.

**Deputat Siyavuş Novruzov "Yeni Müsavat"a dedi ki, İntizam komissiyasının üzvü olmadığı üçün müzakirələrdən xəbərsizdir. YAP-çı deputat əlavə etdi ki, parlament hər bir fikrin ifadə olunduğu yerdir. Lakin o, Milli Məclisdə sərbəst fikrin boğulduğu, fərqli yanaşmalara dözümsüzlük ifadə olunduğu barədə deyilənlərlə razılaşmadı:** "Burada söhbət parlamentdə fikrin ifadəsindən getmir. Hər kəsin çıxış etməsi üçün müəyyənləşdirilən reqlament var. İstənilən deputat o müddət ərzində çıxış edib öz mövqeyini ifadə edə bilər, burada hər kəs sərbəstdir. Bu, daxili nizamnamənin tələblərinə də uyğundur. Bəzən görürsən müəyyən məsələlərə mövzudankənar münasibət ifadə olunur. Məsələn, müzakirə olunan məsələ kənarda qalır, tamam başqa bir məsələ ortaya atılır. Təbii ki, belə bir müzakirə yolverilməzdir. Məsələn, görürsən ki, hər hansı bir müqaviləni təsdiq etməliyik. Ancaq müqavilə kənarda qalır, həmin ölkənin daxili vəziyyəti ilə, yaxud başqa bir dövlətlə münasibəti ilə bağlı fikirlər səsləndirilir ki, bu, olmaz! Ümumiyyətlə, etik davranış qaydaları var, mikrofon söndükdən sonra yerindən danışmaq olmaz! Hər kəsə vaxt verilir, 10 dəqiqə ərzində gündəlikdəki məsələ ətrafında öz fikirlərini ifadə etsin. Mikrofon söndükdən sonra digərinin növbəsi başlayır və kimsə çıxışını kəsmirsə, o halda həmkarının növbəsi pozulur".

**S.Novruzov əlavə etdi ki, İntizam komissiyası hansısa deputatın məsələsinə baxarkən ona xəbərdarlıq edə, töhmət verə, əmək haqqını kəsə bilər:** "Bundan sonra da qaydalara riayət olunmadığı halda İntizam komissiyası mandatdan məhrumetmə ilə bağlı qərar da qəbul edə bilər. Yəni bu, mərhələli şəkildə olur. Kimsə qaydalara əməl etmirsə, etikadan kənar hərəkətlərə yol verirsə, yaxud 6 ay ərzində iclaslarda iştirak etmirsə, onun haqqında intizam tədbirləri görülür, İntizam komissiyasının üzvlərinin verdikləri təklif əsasında müəyyən qərarlar qəbul edilir".



Ancaq parlamentdə dözümsüzlük şəraitinin olduğu, alternativ fikrə şərait yaradılmadığı barədə müxalif fikirlər də səslənir. İddialar var ki, artıq hakim partiya nəinki müxalifətçilərin, hətta hakimiyyətin kursunu müdafiə edənlərin də fərqli fikrinə dözümlü yanaşmır. Bu mənada Z.Orucun bir neçə ay əvvəl parlamentdəki sərt çıxışlarına görə təzyiqlərə məruz qalması, hətta bir neçə iclasa gəlməməsi və ya iştirak etdiyi iclaslarda susması xatırladılır.

**Ötən çağırış tənqidi fikirlərinə görə dəfələrlə sədarətlə mübahisələri düşən sabiq millət vəkili Pənah Hüseyn isə məsələyə fərqli yanaşmanın tərəfdarıdır:** "İndiki Milli Məclisdə siyasi xarakterli alternativ fikirlər və fəaliyyət yoxdur. Orda ola bilsin ki, hansısa bu və ya digər kosmetik təfərrüat məsələləri barədə bəzilərinin arasında şəxsi münasibətlərlə bağlı insidentlər olsun. Amma Milli Məclisin indiki tərkibində siyasi xarakterli alternativlərin olmasını mən müşahidə etməmişəm. Bu, ölkədə ümumi siyasi mühitlə bağlı olan məsələdir. Bizim Milli Məclisə rəhbərlik etmiş məşhur şəxslərdən birinin elə Oqtay Əsədovun da təkrar etdiyi bir fikir var ki, "Milli Məclis siyasət yeri deyil". Elə bununla da hər şey deyilmiş olub. Amma əlbəttə ki, mən bunu konkret Oqtay Əsədovun şəxsi baxışları, keyfiyyəti, xarakteri ilə yox, ölkədəki ümumi siyasi mühit, zehniyyət və mədəniyyətlə əlaqələndirilən bir məsələ hesab edirəm. Amma sözün doğrusu, bu məsələnin də süni şəkildə guya hansısa alternativlər və s. kimi təqdim olunmasını da düzgün saymıram. Məsələnin mahiyyətində bu, yoxdur".

**Komissiya sədri Ağacan Abiyevin "Milli Məclis söz güləşdirmək üçün yer deyil" sözlərinə münasibətini soruşduqda, P.Hüseyn bunu deməklə kifayətləndi:** "Ümumiyyətlə, 21-ci əsrdə Milli Məclisin nə yeri olub-olmaması məsələsinin müzakirə edilməsinin özü əcaibdir".

**Bərdə rayon sakini Günel Tapdıqovanın verdiyi məlumata görə, Zahid Orucun deputat seçildiyi Bərdə rayonunda Oqtay Əsədovun onu sərt tənqid edib, "səviyyəsiz" adlandırması narazılıq yaradıb. G.Tapdıqova bildirib ki, Zahid Oruc Bərdə rayonunun millət vəkilidir. Seçicilərin Zahid Oruca səs verməlirinə səbəb parlamentdə onların haqq səsini çatdırması, eləcə də hüquqlarını qorumaq üçün problemlərini əlaqədar təşkilatlar qarşısında qaldırması, seçicisinə qarşı qayğı ilə yanaşmasıdır:** "Zahid Oruc illərdir ki, öz seçicilərinin haqq səsini ucaldır. Ona görə də Zahid Orucun simasında Bərdə və bərdəlilərin səsinin Milli Məclisdə kəsilməsi heç də yaxşı hal kimi qiymətləndirilməyib. Parlamentin sədri bununla təkcə Zahid Orucu deyil, onun timsalında bütün bərdəliləri təhqir edib". **Onun sözlərinə görə, bundan hiddətlənən bərdəlilər öz deputatlarını qorumaq üçün bəzi addımlar atmağa da hazırlaşırlar:** "Bununla bağlı prezidentə müraciət ünvanlayan seçicilər qərara alıblar ki, Oqtay Əsədovu məhkəməyə versinlər. Əgər onların müraciətləri cavabsız qalarsa, Milli Məclisin qarşısında etiraz aksiyası keçirməyi də düşünürlər".

**Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu iddialara cavabında yalnız bunu bildirdi:** "İntizam komissiyasının verdiyi qərar qanuna, prosesdir qaydalara tam uyğundur və bu, komissiyanın müstəsna səlahiyyətinə daxil olan məsələdir".

❑ **Cavid TURAN**

**AXCP** funksioneri Sahib Kərimli Moskvada Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovla görüşüb. Bu barədə o, öz feysbuq səhifəsində məlumat yayaraq, kinorejissorla fotosunu paylaşıb.



# Moskvada Milli Şura müzakirələri: Cəmil Həsənli İbrahimbəyovla nədən danışıb?

## Cəmil Həsənli və AXCP funksioneri Sahib Kərimli Rusiya paytaxtında Milli Şuranın fəxri sədri ilə görüşüb; kinorejissor Azərbaycandakı siyasi durumla bağlı danışıb



Son dəfə Azərbaycana qardaşının-xalq yazıçısı Maqsud İbrahimbəyovun dəfninə gələn Milli Şuranın fəxri sədri uzun müddətdir gündəmdə deyil. Passiv siyasi fəaliyyəti onun özünün seçdiyini desək daha doğru olar.

**S.Kərimli ilə İbrahimbəyovla görüşü barədə söhbət etdik. AXCP funksioneri əvvəlcədən görüşü planlaşdırdıqlarını bildirdi:** "Görüş mənim təşəbbüsümlə oldu. Rüstəm müəllimə zəng etdim, görüşmək istədiyimi bildirdim. Normal müzakirələr apardıq, maraqlı söhbətimiz alındı. Rüstəm müəllim ölkəsində normal cəmiyyət, idarəetmə görmək istəyir. Danışıqlarımız əsasən bu yöndə oldu. Onunla son proseslər, 2013-cü ildəki prezident seçkiləri, eləcə də həmin ildə prezidentliyə namizədliyi ilə bağlı müzakirələr apardıq. Suallarımı verdim, cavablarımı aldım. O, ölkəmizin tanınmış ziyalısıdır. Rüstəm müəllim istəyir ki, Azərbaycan demokratik bir ölkə olsun, hakimiyyət xalqa xidmət etsin. Mən onunla Milli Şura üzvü, o da sədr kimi mənimlə görüşdü. Burada qeyri-adi heç nə yoxdur. Milli Şuranın fəaliyyəti, ölkədəki siyasi düşərgənin səfərbər olunması, demokratik dəyişikliklərə start verilməsi ilə bağlı geniş müzakirələrimiz oldu. Təmsilçisi olduğum AXCP və Milli Şuranın əvvəlcədən mənim Rüstəm müəllimlə görüşümdən xəbərlərinin olduğunu deyə bilmərəm. Görüşüm AXCP-də heç bir narazılıqla qarşılana bilməz. Mən görüş üçün Rüstəm müəllimə telefon açanda o, Cəmil Həsənli ilə birlikdə idi. Cəmil müəllimlə görüşüm orada olmasa da, yəqin ki, Rüstəm müəllim ona dedi. Rüstəm İbrahimbəyov kifayət qədər tolerant, liberal dəyərlərə sadiq olan birisi kimi, mənim AXCP daxilindəki məlum fəaliyyətimdə qeyri-adi heç nə görmür. O, ölkədə güclü siyasi qurumların olmasında maraqlıdır. Bu yolla demokratiyanın bərqərar olacağına inanır. Onun Azərbaycana gəlməsi ilə bağlı heç bir problem olmamalıdır. Qardaşının dəfn mərasimində iştirak etdi. O, yaradıcı şəxsdir. Görüşümüz də elə kino mərkəzində oldu. Hazırda yaradıcı fəaliyyətlə məşğuldur".

**Sahib bəy Milli Şuranın fəxri sədrinin Azərbaycandakı siyasi qüvvələr arasında növbəti böyük birliyin yaranmasını istədiyini söylədi:** "Rüstəm müəllim Milli Şura yaranarkən bu qurumun ətrafında böyük müxalif birliyin bir araya gəlməsində xidmətləri olmuşdur. Bu gün də istəyir ki, daha böyük bir müxalifət birliyi yaransın".

**S.Kərimli kinorejissorun Rusiya-Türkiyə münasibətləri ilə bağlı pozitiv düşüncədə olduğunu da qeyd etdi:** "Regionda gedən gərgin münasibətlərin sonda demokratik proseslərə gətirib çıxaracağına inanır. Rusiyadakı ermənilərlə bağlı müəyyən söhbət apardıq. Bu yöndə bilgilərimi artırmaq üçün suallarım oldu. Rusiyadakı ermənilərin, eləcə də Azərbaycan diasporalarının fəaliyyətləri ilə bağlı danışdıq. Müqayisələr oldu".

❑ **Cavanşir ABBASLI**

# Sabiq nazirin Naxçıvanda daha bir işgəncə faktı ortaya çıxdı

## Nizami Ağasıyev: "Vəli Əsgərov təcridxanada məni döyərkən..."

**Vəli Əsgərov Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri olduğu dövrdə törətdiyi çoxsaylı qanunsuzluqlar araşdırılmamış qalıb.**



Ötən sayımızda V.Əsgərov nazir olduğu dövrdə ictimai fəallara, hüquq müdafiəçilərinə, jurnalistlərə, müxalifətçilərə qarşı qanunsuzluqları, amansız rəftarı haqda yazmışdıq. İndi məlum olur ki, V.Əsgərov 15 illik nazirliyi dövründə hərbçilərə qarşı da amansız, qanunsuz əməllərə qol qoyub.

Kəşfiyyatçı, 11 sentyabr 1981-ci ildə Naxçıvan şəhərində anadan olmuş, hazırda şəhərin Təbriz küçəsi ev 1, mənzil 55-də yaşayan Nizami Rəsul oğlu Ağasiyev hurriyyet.org-a V.Əsgərovun onun başına gətirdiyi haqsızlıqlar haqda məktub yazıb. Məktubunda özünə qarşı edilən işgəncələrdən bəhs edib. Gizir yazır ki, 1999-cu ildə Azərbaycan Silahlı Qüvvələrində kəşfiyyatçı kimi həqiqi hərbi xidmətə başlayıb. Ağdam, Tərtər və bir sıra cəbhə bölgələrində döyüşlərdə iştirak edib, 20-dən çox döyüş tapşırığını yerinə yetirib. Döyüş tapşırıqları zamanı erməni hərbçini əsir götürüb və hərbçi yoldaşlarını mühasirədən çıxarıb. Xidmətinə görə Silahlı Qüvvələrin 90 illik, 95 illik yubiley, qüsursuz xidmətə görə 3-cü dərəcəli medallarla, fəxri fərmanlarla və pul mükafatları ilə təltif olunub.

### "Başımdan qara torbanı çıxaranda bildim ki..."

**Kəşfiyyatçı məktubunda yazır ki, 1 günün içində karyerası da, ailəsi də dağılıb:** "2015-ci ilin sentyabrında yaşadığım evin qarşısında bir neçə nəfər şəxs arxadan, boyun nahiyəmdən yapışaraq sıxmağa başladı. Məni boğan şəxs bildirdi ki, Naxçıvan MTN-in əməkdaşıdır və məni MTN-ə aparmağa gəliblər. Müqavimət göstərmədim, onların dedikləri ilə razılaşdım. Buna baxmayaraq, MTN əməkdaşları məni döyüb, təhqir edərək, qollarımı qandalla bağladılar və başıma qara torba keçirib maşının arxa hissəsinə oturtdular. Həmin şəxslər başımdan qara torbanı çıxaranda bildim ki, məni Naxçıvan MTN-in binasına gətiriblər. Onlar Vəli Əsgərovun adamları idi. Sonra stola boş vərəq və qələm qoyub məni döyməyə başladılar. Dedilər ki, guya İŞİD terrorçu təşkilatına məlumatlar ötürürəm və vəhhabilərlə tanışlığım var. Onlara bildirdim ki, öldürsəniz də belə izahat yazmayacağam. Çünki deyilənlərin hamısı yalandır, mənim terror təşkilatı ilə heç bir əlaqəm yoxdur. Həmin şəxslər yenə məni döydülər və dedilər ki, onların dediyini yazıb imza atmasam, ailəmi gətirib alçaldacaqlar. Mən həmin şəxslərin ailəmi MTN binasına gətirəcəklərindən qorxaraq, onlara heç bir söz deməyib susmağa başladım".

### "Qeyri-insani hərəkətlər edir, ləyaqətimi alçaldırdı"

**Kəşfiyyatçı məktubunda qeyd edir ki, V.Əsgərovun tapşırığı və göstərişi ilə onu 2 gün MTN-in təcridxanasında saxlayıblar. Həmin müddətdə ona dəhşətli işgəncələr veriblər:** "Təcridxanada qaldığım müddətdə başıma qara torba keçirirdilər. Qollarımı isə qandalla bağlayırdılar. Tanımadığım bir şəxs mənə işgəncələr verir, döyürdü. Qeyri-insani hərəkətlər edir, ləyaqətimi alçaldırdı. Vəli Əsgərovun göstərişi ilə başıma torba keçirib qolumu bağlamışdılar ki, mənə işgəncə verənin üzünü görməyim".

### "Mənə və ailəmə hədə-qorxu gələrək, işgəncələr verirdi"

**Kəşfiyyatçı Vəli Əsgərovun ona şəxsən işgəncə verdiyini də yazır:** "Orada *(Naxçıvan MTN-də - E.H.)* olduğum müddətdə Vəli Əsgərov mənə və ailəmə hədə-qorxu gələrək, işgəncələr verir və şərəf və ləyaqətimi alçaldaraq məni şəxsən təhqir edirdi. Qanunsuz olaraq təcridxanada saxlandığım müddətdə hüquqlarımı qorumaq üçün müdafiəçi tələb edirdim. Lakin məni müdafiəçi ilə təmin etmədilər. Üstəlik, saxlandığım barədə xidmət etdiyim hərbi hissəyə, ailə üzvlərimə və yaxınlarıma heç bir məlumat verilmədi. Bu səbəbdən iş yerimdəki komandirlər, ailə üzvlərim mənim haqqımda məlumat almadıqları üçün axtarışa vermişdilər. Saxlandığım müddətdə tutulmam barədə protokol yazılmamış, prokurorluq bu barədə məlumatlandırılmamış, sənədləşmələr aparılmamışdı".

### Vəli Əsgərov kəşfiyyatçını şəxsən döyüb, telefonunu gizli dinləyib!

**Kəşfiyyatçı yazır ki, həbsindən əvvəl telefonu gizli şəkildə dinlənilib:** "Həbsimdən əvvəl Vəli Əsgərov tərəfindən istifadəmdə olan mobil nömrəm dinlənilib, mobil telefonumda gedən danışıqlar gizli qaydada ələ keçirilib. Çünki Vəli Əsgərov təcridxanada məni döyərkən mobil telefonla danışıqlarımdan sitatlar gətirirdi, dediyi sözləri həqiqətən telefonda cümlə-cümlə danışmışdım".

### "Ailəm dağıldı..."

**Kəşfiyyatçı V.Əsgərovun onun şəxsi sirlərini yaydığını da qeyd edir:** "Mən MTN təcridxanasından buraxıldıqdan sonra Vəli Əsgərov telefonlarımın gizli dinləməsindən əldə etdiyi məlumatları yayaraq barəmdə iş yerimə və ailə üzvlərimə şərəf və ləyaqətimi alçaldan, nüfuzdan salan yalan məlumatlar verdi. Həmin vaxt mən dəfələrlə Vəli Əsgərovdan tələb etdim ki, mənim barəmdə qanuni sənədləşmə aparılsın, vəkillə təmin olunmam üçün tədbir görülsün, barəmdə olan təhqiqat materialları aidiyyəti üzrə göndərilsin. Ancaq buna baxmayaraq, Vəli Əsgərov yenidən şərəf və ləyaqətimi alçaldaraq, məni qorxudaraq, hər hansı bir cinayət əməlini etmədiyim halda, "həmin əməli etdiyimi" etiraf etməyə məcbur etməklə, məni fiziki işgəncələrə, təzyiqlərə məruz qoydu. Bütün bunların nəticəsində fiziki travmalar aldım, mənəvi sarsıntı keçirdim, ailəm dağıldı. Vəli Əsgərov xidmət yerimə və ailəmə məni guya "İŞİD üzvü və vəhhabi olmağım barədə" yalan və uydurma məlumatlar verərək, xidmətdən uzaqlaşdırılmağıma bais oldu. Zaman da göstərdi ki, Vəli Ələsgərov özü xəyanət içərisindədir. Onun uydurmaları nəticəsində həyatım alt-üst olub, uşaqlarım himayəsiz qalıb".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016




# Türkiyə və Rusiya barışdı, Azərbaycanın önəmi artdı, prezident Əliyevə təşəkkür edildi...

## Rusiya prezidenti 7 aylıq fasilədən sonra bu gün türkiyəli həmkarına zəng edəcək; köhnə tərəfdaşlar arasında buzlar sürətlə əriyir; Ankara barış səylərinə görə Azərbaycana təşəkkür etdi...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Putinə ünvanlandığı son üzrxahlıq məktubu ilə iki ölkə münasibətlərində yaranan şok gəlişmə dünya mediasının aparıcı mövzularından biri olaraq qalır. Bu da şübhəsiz ki, ilk növbədə iki dövlətin regional və qlobal proseslərə ciddi təsir imkanlarından qaynaqlanır.**

Artıq Rusiyadan Ərdoğanın məktubuna daha yüksək səviyyədə və adekvat rəsmi reaksiyalar gəlməyə başlayıb. Məsələn, Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko Türkiyə liderinin üzrxahalıq məktubunu şərh edərkən deyib ki, məktub münasibətlərin düzəlməsi üçün təməl ola bilər. "Üzr gecikmiş olsa da, heç olmamasından daha yaxşıdır. Zaman içərisində qarşılıqlı əlaqələrimiz müəyyən neqativ təsirlərə məruz qaldı, keçmişdəki inam itirildi. Yenə də bu məktub iki ölkə arasında bağların yenidən bərpası üçün əsas ola bilər". Matviyenko Vladimir Putinin təyyarə böhranından sonra yaşanan vəziyyətin Rusiyanın türk xalqına olan dostluq duyğularına təsir etmədiyini də söyləyib. "Baş verən hadisənin fərqinə varılıb. Bunun üçün də məktubu ancaq müsbət qarşılaya bilərik" - o vurğulayıb.

"Artıq Rusiya ilə normallaşma prosesi başladı". Bunu isə **Türkiyə baş naziri Binəli Yıldırım** dünən parlamentdəki çıxışında söyləyib. O, həmçinin Rusiya ilə əlaqələrin normallaşmasında Azərbaycan və Qazaxıstan liderlərinin çox çalışdığını da bildirib: "Bu günlər ərzində Rusiya ilə münasibətləri normallaşdırma istiqamətində önəmli hadisələr baş verdi. Həm iqtisadi, həm də mədəni əlaqələrimizin bərpası üçün çox çalışdıq. Qarşılıqlı yazışmalar Türkiyə ilə Rusiya arasında buzların əridiyini göstərir. Rusiya ilə normallaşma prosesinin başladığını deyə bilərəm. İşlərin bu mərhələyə gəlməsi üçün qardaşlarımız - Qazaxıstan və Azərbaycan liderləri çox çalışdı. Bu məsələdə onlara təşəkkür edirik. Artıq dostlarımızı artırıb, düşmənlərimizi azaldacağıq".

Bundan bir gün qabaq isə baş nazir "Biz hər şeyi yenidən başlayacağıq" söyləmişdi. Baş nazir onu da əlavə eləmişdi ki, artıq böhran arxadadır və bir-iki gün sonra prezident Ərdoğan Rusiya prezidenti Putinlə telefonla danışacaq. Bununla da böhran tamamən bitəcək. Bu arada vurulan təyyarəyə görə Türkiyənin təzminat ödəyəcəyi də bəlli olub.

***

Qeyd edək ki, ötən müddətdə əslində Türkiyə-Rusiya münasibətlərinin bərpası istiqamətində gizli vasitəçilərin çalışmaları heç vaxt dayanmayıb. "Yeni Müsavat"a məlum olub ki, bu iki nəhəng ölkənin siyasi iqtidarlarının barışması üçün Azərbaycan prezidenti İlham Əliyev də durmadan çalışıb, hətta bir neçə ay əvvəl prezidentləri barışdırmaq nöqtəsinə qədər fəaliyyət göstərib. Lakin belə bir nəticənin əldə olunduğu bir gündə Türkiyənin sabiq baş naziri Əhməd Davudoğlunun hansısa bir mitinqdə Rusiyanı və prezident Putini ağır sözlərlə aşağılaması prosesi tormozlamışdı. Rusiya tərəfi hesab edirdi ki, Davudoğlu ABŞ-ın Türkiyə iqtidarındakı əsas adamıdır və bunu qəsdən edir. Təsadüfi deyil ki, "Yeni Müsavat" Türkiyədə hökumət dəyişərkən obrazlı bir başlıq vermişdi: Davudoğlunun kəlləsini Putin istədi, Ərdoğan verdi.

Biz proseslə bağlı daha dərin bilgiyə sahibik. Ərdoğanın məlum məktubunun yayıldığı gün Rusiya və Azərbaycan prezidentlərinə yaxın simanın Ankarada olması, mühüm missiyalar aparması haqqında da məlumatımız var. Prosesin yekunu, hər halda, müsbətdir və daha yaxşı nəticələr gözlənilir.

Belə ki, yazı hazırlanarkən, Putinin iyunun 29-da, yəni bu gün Ərdoğana telefon açacağı xəbəri yayılıb. Kremlin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov təşəbbüsün Rusiya prezidenti tərəfindən ediləcəyini də deyib.

***

Nəzərə alsaq ki, eyni gündə Türkiyənin İsrailə də barışığı, faktiki, gerçəkləşib, o zaman belə demək olar ki, Ankara eyni vaxtda iki mühüm, strateji əhəmiyyətli dövlətlə, dünənin strateji tərəfdaşları ilə münasibətləri qaydaya sala bilib. İsrail və Rusiya kimi regional güclərlə əlaqələrin normal məcraya qayıtmasından isə təkcə bu üç ölkə yox, ümumən bölgə qazanacaq, regional sülh və təhlükəsizlik sistemi udacaq, Azərbaycan udacaq. Uduzan və pəjmürdə olan tək qüvvə isə beynəlxalq terrorçular, İŞİD, Bəşər Əsəd, bir də yəqin ki, mənfur qonşularımız olacaq.

Hərgah, Ankaranın Rusiya ilə barışıq addımını əskiklik kimi qələmə verənlər də var. Ancaq gəlin unutmayaq ki, prezident Ərdoğanın həmkarı Putinə son məktubunda "təyyarəni səhvən vurmuşuq və buna görə üzr istəyirik" ifadəsi yer almayıb. Rəsmi Kremlin özünün yaydığı mətndə də bu sözlər yoxdu. Yəni iki prezident məsələdə öz sifətini qoruyub saxlayıb.

Bir də qardaş ölkə etmədiyi səhvə görə niyə üzr istəsin ki? Doğru, hava sərhədini pozan rus təyyarəsini Türkiyə vurdu, amma pilotu Türkiyə vurmadı, Suriyadakı müxalifətçi güllələdi. Ərdoğan da təyyarənin deyil, məhz pilotun vurulmasına görə üzr istəyib, Türkiyə adından yox, suriyalı müxalifətçi adından - həm də Putindən yox, pilotun ailəsindən...

***

Əsas odur ki, aradakı buzlar artıq sürətlə əriməkdə, böhranlı dönəm arxada qalmaqdadır. Bu gün 7 aylıq kritik dönəm Putinin telefon zəngi ilə rəsmən başa çata bilər. Hər halda, siyasətdə əbədi düşmənlər olmur, əbədi maraqlar olur. Türkiyə və Rusiyanın köklü maraqları isə ziyan görməkdə idi. Nə yaxşı ki, hər şey rus demiş, "xoşbəxt sonluqla bitir". Və nə yaxşı ki, bu "xoşbəxt sonluq"da Azərbaycanın da mühüm payı var - qardaşlıq payı.

**Xeyirli olsun!**

**❑ Siyasət şöbəsi**

# Roma papasının açıqlamalarına Azərbaycandan sərt reaksiyalar

**Roma Papası Fransiskin 24-26 iyun tarixlərində Ermənistana səfəri və təcavüzkar ölkədə verdiyi açıqlamalar Türkiyə və Azərbaycanın gündəmindən düşmür. Papanın "erməni soyqırımı" ifadəsini işlətməsi hər iki dövlətdə ciddi narazılıq doğurub.**



**Sərdar Cəlaloğlu:**
"O, nə əcəb Vatikanı İtaliyaya vermir?"



**Fəzail Ağamalı:**
"Ermənistanın işğalçılıq siyasəti həm də Vatikan tərəfdən himayə olunur"



Fransiskin təkcə qondarma ifadəni dilə gətirməsi deyil, başqa narazılıq yaradan məsələlər də var. Bunlardan biri Papanın türklər və ermənilər arasında barışığın yaranması, Dağlıq Qarabağda sülhün əldə olunması üçün dua etməsidir. Fransisk bu məsələlərdə sülhpərvər rolunda çıxış etmək istədiyini bildirib. Bundan əlavə, onun erməni gənclərə müraciəti də geniş müzakirələrə səbəb olub. Katoliklərin rəhbərinin "əziz gənclər, gələcək sizindir" fikirləri Ermənistan prezidenti Serj Sərkisyanın erməni gənclərinə bu tipli müraciətində dediyi "Qarabağ məsələsini siz həll etdik. Ağrının taleyini də siz həll edəcəsiniz" sayıqlamaları ilə üst-üstə düşür.

**Fransiskin ölkəmizdə əsas etirazla qarşılanan açıqlamaları onun Ermənistanı tərk edərkən işlətdiyi bu sözlərdir:** "Mən azərbaycanlılara Ermənistanda gördüyüm həqiqətlər haqda danışacağam, o haqda ki, onları hiss etmişəm, habelə onları ruhlandıracağam. Mən onlara bunları deyəcəyəm: kiçik torpaq parçasına görə *(Dağlıq Qarabağı nəzərdə tutur-red.)* sülhü bərqərar etməmək-bunda möhtəşəm heç nə yoxdur, axı bu o deməkdir ki, nəsə qaranlıqdır, elə deyilmi? Lakin mən bütün azərbaycanlılara və ermənilərə deyirəm ki, bəlkə onlar sülhün əldə edilməsi məsələsində razılığa gələ bilmirlər və bunun üzərində işləmək lazımdır. Bilmirəm, daha nə demək olar...İndiki məqamda bu mənim ürəyimdən gəlir-həmişə irəliyə aparan müsbət həll tapmağa cəhd etmişəm".

Qeyd edək ki, Papanın Azərbaycana səfəri sentyabrın sonları, oktyabrın əvvəllərinə planlaşdırılır.

**Azərbaycanın Xarici İşlər Nazirliyi Roma papasının bu açıqlamasına münasibət bildirib. Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev APA-ya açıqlamasında bunları deyib:** "Roma Papası Fransiskin İrəvanda birgə bəyanat vasitəsilə Dağlıq Qarabağda sülhə çağırışı Ermənistanın Azərbaycan ərazilərinin qeyri-qanuni işğalına son qoyması, Ermənistan silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərindən, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən çıxarılması, qanlı etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının təmin edilməsi, bununla da regionda sülhün və ədalətin bərqərar olunmasına çağırışdır".

**Onun sözlərinə görə, Roma papasının sülh çağırışı Ermənistanda edildiyi üçün bu çağırışın ünvan sahibi rəsmi İrəvandır.**

"Ümidvar olmaq istərdik ki, rəsmi İrəvan Roma papasının bu sülh çağırışından nəticə çıxaracaq və Azərbaycana qarşı yürütdüyü təcavüzkar və işğalçı siyasətinə tezliklə son qoyacaq", - deyə H. Hacıyev bildirib.

**ADP sədri Sərdar Cəlaloğlu Fransiskin xristianlığın "iozid ordeni"nə mənsub olduğunu bildirdi:** "İozidlər dünya və vətəndaş müharibələrinin olmasında maraqlıdırlar. Roma papasının dünyada müharibə tərəfdarı olduğunu bir faktla qeyd edə bilərik. Ukraynada məlum proseslər başlayanda o dedi ki, artıq biz üçüncü dünya müharibəsinin başlandığını deyə bilərik. Halbuki heç kəs bu prosesləri dünya müharibəsi hesab etmirdi. İozidlər üçüncü belə savaşın başlanmasını istəyirlər. İndiki Papanın sülhpərvər missiyası yoxdur, ola da bilməz. Onun kasıb yaşaması tamamilə iozid qanunlarına uyğundur. Bu açıqlamalarda erməniləri Roma katolik kilsəsinə tabe etmək məqsədləri güdülür. Onun bəyanatlarında dünyəvi maraqlar da var. Qarabağı kiçik torpaq saya bilər. Amma bir sual meydana çıxır ki, o, nə əcəb Vatikanı İtaliyaya vermir? Cəmi 30 kilometr ərazisi var. Qarabağdan 4 dəfə kiçik ərazidir. Azərbaycan üçün Qarabağ ən böyük torpaqdır. Bu fikirlərlə bizi kiçildir. Dünyada elə ölkələr var ki, ərazisi Qarabağdan kiçikdir. O zaman bu dövlətləri böyük dövlətlərə birləşdirsinlər. Papa çox mənasız fikirlər səsləndirib. Bunlar Roma papasının çirkin siyasətindən xəbər verir. Bunu qətiyyətlə pisləyirik".

**İqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, Roma papasının Ermənistandakı çıxışları, bəyanatları xristian təəssübkeşliyini çılpaqlığı ilə ortaya qoydu:** "Ermənistanın işğalçılıq siyasəti həm də Vatikan tərəfdən himayə olunur. Papanın səfərində bunlar açıq şəkildə göründü. Papa üzünü Sərkisyana tutub deməli idi ki, işğal etdiyin torpaqlardan çıxmalısan. Çünki torpaqlar Azərbaycanındır. Bu ifadəni dilə gətirmədən, sətiraltı mənalarla sülhün dilə gətirilməsi, eləcə də "kiçik torpağa görə müharibənin olmamasını" önə çəkməsi ermənilərin müdafiəsinə yönəlik fikirlərdir. O, missiyasına görə heç zaman dövlətləri və insanları müharibəyə çağıra bilməz. Məhz bu baxımdan sülhdən danışdı. Onun Azərbaycana gələrkən hansı fikirləri söyləyəcəyini deyə bilmərəm. Amma hər halda, onun düşmən ölkədə olması erməni cəmiyyətinə stimul verdi".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyul 2016

# “Qan içindəydim, elə bildim ölmüşəm”

## Aqil Abbas: “Qohumlara da demişəm, futbol olanda mənim evimə heç kəs gəlməsin!”

**Biz görüşüb söhbətləşəndə hələ Türkiyə prezidenti Rusiyaya üzrxahlıq məktubu yazmamışdı. Yarım il öncə baş verən təyyarə olayına görə “top”a tutulan həmsöhbətimlə həmin mövzuya yalnız söhbətin sonunda toxunduq. Deputat Aqil Abbasla görüş yerimiz “Dostluq” kinoteatrının qarşısı oldu.**

**Qarabağın bir parçası da saymaq olar buranı. Əsasən işğal zonasından olanlar toplaşır burada. Aqil bəyə deyirəm ki, İsgəndər Həmidov da bir neçə dəfə bu ünvanda görüşməyimizi təklif edib.**

- Bura əsasən ağdamlılar yığışırlar. Mən çox yorulanda bura gəlib 1-2 saat domino oynayıram, bütün stressimi atıram. Özü də əsəbiləşirəm, dalaşıram. Hətta İsgəndər bəylə də dalaşmışam. Bir də şahmat oynayanda sakitləşirəm. Şahmat oynayan da azdır. Mehman Cavadoğlu gözəl şahmat oynayır. Ancaq onunla da “it ilindən it ilinə” oynayırıq.

Çay masası arxasında əyləşmiş qarabağlılarla köhnə xatirələri bir xeyli çözələyəndən sonra burada danışmağın mümkün olmayacağını görüb “gəl, gedək evə, sakit yerdə söhbətimizi edək” deyir.

**Ortabab avtomobilə əyləşməyi təklif edəndə, düzü, təəccüblənirəm. Reaksiyası:** “Mənim maşında fors eləmək vaxtım keçib. Maşın fors eləsin ki, məni Aqil Abbas sürür. Həm də bununla şəhərin işində dolaşmaq rahatdır, balacadır, istəyirsən, at bir tərəfə, çıx, get”. **Deyir bir dəfə evakuator aparıbmış, aləmi bir-birinə qatıb:** “Gərək eləməyəydim. Çıxdım ki, bütün maşınlar qalıb yerində, bunu aparıblar, ən ucuzu olub deyə. Elə yaxına aparmışdılar. Gedib sürüb getdim”. Özü qəza törətməsə də, bir dəfə onun oturduğu maşını möhkəm vurublar: “Dostumun ”nolşest"i idi. Bir dostumuzun Şabranda qəzaya düşdüyünü xəbər verdilər. Gedib götürdük, Bakıya qayıdanda Sumqayıt tərəfdə birdən bir maşın qarşımıza çıxdı. Necə vurmuşdusa, ön şüşədən çıxıb asfalta düşmüşdüm. Qan içindəydim, əvvəl elə bildim ölmüşəm". Onu da deyir ki, heç vaxt yanındakına maşını bərk sürməyə imkan vermir.

***

Badamdardakı bağlı-bağatlı həyətinə, oradan da evə daxil oluruq. Həyat yoldaşı, İradə Tuncay xoşgəldindən sonra niyyətimi bilib gülərək “elə olsun keçəndəfəki kimi aləm bir-birinə dəyməsin” deyir.

**Mürəbbəli çay və “sərhədsiz” söhbət başlayır. Aqil Abbasa ən çox təsir edən kiminsə övladları haqqında yazılanlardır. Elə özü və həmkarları daxil:**

- Deputat həmkarlarımın birinin oğlu haqqında yazıblar ki, filankəsin oğlu vəzifəyə qoyulub. Adam işləyirsə, rütbəsi, savadı artır, yaxud Polis Akademiyasını qurtarıbsa, niyə irəli çəkməsinlər? Bunun atası deputatdırsa, işsiz qalmalıdır? Özü də bir şey deyim, Daxili İşlər Nazirliyində təsnifatla gedir, bu yerdə 3-4 il işləməsən, səni başqa işə keçirmirlər, ya rütbə vermirlər.

Ya da mənim oğlum NATO-nun məktəbində oxuyub. Türkiyəyə təhsil almağa dövlət göndərib. Gedəndə 16 yaşı var idi. 4 il oxuyub qayıtdı. Mən ilk dəfə gedib onun olduğu kazarmanı, o intizamı, əziyyəti görəndə ağlayıb çıxdım çölə ki, mən uşağı niyə qoymuşam bura göndəriblər. Dedim, mənim ağlım yox imiş, mən bu uşaği niyə öldürürəm. Artıq 16 ildir polisdədir, vaxtı çatdıqca rütbəsi artmalıdır da. Yaxşı işləyibsə, vəzifəsi böyüdülməlidir də. Təzədən burada Polis Akademiyasını qurtarıb. 3 rayonda müavin işləyəndən sonra da bölməyə rəis göndəriblər. Bunun mənə dəxli yoxdur axı. Mən deputatamsa, uşağım heç yerdə işləməməlidir? Bir dəfə də hirslənib demişdim ki, hə, Türkiyədə nazir uşaqları bazarda kartof satır, ya da yol kənarında benzin doldurur. Çıxaq, mənim kitabxanama baxaq, 15 min kitab var. Kitabın içində böyüyən uşaq oxuyur axı...

İkinci qata qalxırıq. Bir otaq başdan-ayağa kitabdır. Hələ qalanı zirzəmidədir. Aqil Abbas kitab vurğunudur. Burada daha kimlərin əsərləri yoxdur? Hətta erməni müəlliflərə qədər var. Məmməd Arazın, ata-anasının, gənc yaşında dünyasını dəyişmiş qardaşının fotoları rəflərin üstündən asılıb. Sintezator, saz və tarı da var. Deyir hərdən özü üçün ifa etməyi sevir. Tarı əlinə alıb “rəhmətlik qardaşımındır, bunu 2 min manata yığdırmışdı. Bir ara itmişdi, 1500 verdim, tapıb gətirdilər” deyir. Hətta tapılandan sonra onu sınamağı da qəribə olub: “Tarı qaldırıb çanağını yerə çırpdım, dedim kökdən düşməsə, demək, qardaşımındır”.

***

**Söhbət yenə çay masasında davam edir. Bu məqamda səhiyyədən, təhsildən danışırıq:**

- Rayonlarda gözəl xəstəxanalar tikiblər, müasir avadanlıqlarda da təchiz ediblər. Amma işlədən həkim yoxdur. İnişil Ankaraya müayinəyə getmişdik. Mən özüm həkimə gedən deyiləm, hətta xəstələnəndə də xanımım hansı iynə-dərman lazımdırsa, bilir. Ankaranın məşhur xəstəxanalarundan birində 26-27 yaşında gənc azərbaycanlı həkimlər gördüm, heyrətləndim. Bunlar ürək əməliyyatı aparırlar, daha nələr edirlər. Məlum oldu ki, burada 10-a qədər cavan azərbaycanlı həkim var. Çünki orda yüksək maaş alırlar, gəlib burda 200 manata necə işləsinlər? Ona görə də təhsil alandan sonra bura qayıtmırlar.

***- Tibbi sığortanın tətbiqi də qaldı...***

- Bəli, qalıb. Artıq hazırlayırlar, deyəsən, payız sessiyasında həllini tapacaq. Ağcabədidə, bizim kəndimizdə böyük bir xəstəxana var. O xəstəxana kimə lazımdır? Çünki Ağcabədidə böyük bir xəstəxana tikiblər, camaat heç Ağcabədidə özünü əməliyyat etdirmir, Bakıya gəlir. İndi kim gedib bizim kənddəki xəstəxanada əməliyyat olunar? Artıq puldur. Kənddə ambulator olsun ki, təcili yardım eləsin. O xəstəxanalara çəkilən xərcləri həkimlərin maaşına əlavə etmək olardı. Oxumağa gondərilənlərin qarşısında da tələb qoyulmalıdır ki, qayıdıb Azərbaycanda işləyəcəksən, özü də bu qədər də maaş alacaqsan. Avropanın hansı ölkəsinə gedirsən, orada azərbaycanlı həkimlər var. Mən başqa ölkələr üçün mütəxəssis hazırlayıram? 70-ci illərdə Heydər Əliyev hakimiyyətə gələndən sonra xüsusi bir gediş elədi. Hər il 1500 uşağı ali təhsil almaq üçün SSRİ-nin ali məktəblərinə imtahansız göndərirdi. O məktəblərdən əlavə yer almışdı, sarayda görüş keçirib yola salırdılar. Azərbaycan sovet hökumətinin qoyduğu plandan əlavə 1500 artıq tələbə qazanırdı. Bu gün çox kadrlar, elm sahəsində olanlar elə vaxtilə Heydər Əliyevin təhsil almağa göndərdiyi adamlardır. İndi də möhtərəm prezident həmin o siyasəti həyata keçirir, ildə xeyli uşaq dövlət hesabına təhsil almağa göndərilir. Amma yaxşı olar ki, özü xaricdə oxuyanlara da dövlət sahib çıxsın, onlar yetişsinlər, qayıdıb burada işlə təmin olunsunlar".

**Mövzunu dəyişirik:**

***-Aqil bəy, “Dolu”dan sonra yeni filminiz olmadı. Niyə?***

- Yox, biri də var. Əslində “Dolu”dan sonra yazmaq çox çətindir. “Dolu” hamının ürəyinə elə bir naxış qoydu ki, sonra zəif yazı yazarsan, adam gözdən düşər. Bu, hər bir yazıçı, ssenarist, rejissor üçün qorxulu şeydir. Amma indi Mədəniyyət və Turizm Nazirliyində bir ssenarim var, yəqin ki, gələn il çəkilişinə başlanacaq. “Qar üstündə qan çiçəyi” povesti əsasında. O da savaşla bağlıdır, amma bu dəfə məsələyə tamam başqa yöndən yanaşmışam. Orada atışma-qırışma yoxdur, erməni və Azərbaycan postları arasında baş verənlərdən gedir. 2000-ci ildə Hilaldağda 7 əsgərimiz donub öldü e, o hərbçilərimizə həsr eləmişəm. Amma mənim əsərimdə onların biri sağ qalır.

***- Aqil bəy, amma bu da var ki, filmlərimiz Azərbaycandan kənara çıxa bilmir...***

- Bu filmi çıxara bilərik. “Dolu” filmi haqqında da deyirdilər ki, bu filmi dünyaya göstərmək olmaz. Deyirdim ki, Rembonu bütün dünyada göstərirlər, bütün filmlərində adam güllələyir. İkincisi də “Dolu”nu yazanda ona Almaniyada, İngiltərədə ona baxıb-baxmayacaqları mənim üçün maraqlı deyildi. Burada söhbət milli qürur məsələsindən gedirdi, əsasən daxili auditoriyaya köklənmişdim. Amma bu film çəkilsə, onu dünyanın hər yerində göstərmək olar.

***- Qarabağ həqiqətlərinin yayılmasında filmlər mühüm rol oynaya bilər...***

- Dünyada kinodan güclü heç nə yoxdur. Nə qədər güclü roman yazırsan-yaz, 3 milyon adam oxuyur. Amma bir filmə birdən 1 milyard adam baxır. “Dolu” filminə Azərbaycanda demək olar ki, hamı baxıb. Türkiyədə 30 dəfə təqdimat olub, Türkiyə, Ukrayna televiziyaları verib, Rusiyada da təqdimatı olub, youtube-yə də qoyublar, ən çox izlənən Azərbaycan filmidir, 250 minə qədər adam baxıb, 400-ə qədər də şərh yazıblar. Bəli, filmin auditoriyası çox böyükdür. Həm də film təkcə əsər deyil, musiqidir, obrazdır, insandır, hissdir. Məsələn, “Dolu”nun belə alınmasının bir səbəbi də Polad Bülbüloğlunun musiqisidir. Romanda musiqi yoxdur ki...

***

**“Qarabağ” futbol klubunun fəxri prezidenti olan Aqil Abbas futbolla nəfəs alır. Ona görə də Avropa çempionatından danışır:**

- Futbolu xəstəlik dərəcəsinə qədər sevirəm. Bir dəfə də demişəm, “Qarabağ”la Türkiyənin oyununa daha baxmıram. Çevirib hesaba baxıram, yenə kanalı çevirirəm. Çünki o qədər həyəcanlanıram ki, o anda ölə bilərəm. Azərbaycan yığmasının oyununa isə ləzzətlə baxıram, çünki bilirəm ki, onsuz da uduzacaq, niyə həyəcanlanım? Tələbə vaxtı stadionda 15-ci sektorda bizim daimi yerimiz var idi. Tovuzdan bir müəllimimiz var idi, güləş üzrə SSRİ çempionu idi. “Ararat”la “Neftçi” oynayırdı. Sonda “Neftçi” uduzdu. Bu kişi elə həyəcanlandı, ürəyi getdi, təcili yardım gələndə məlum oldu ki, artıq ölüb. Futbol belə bir şeydir. Bir dəfə “Qarabağ” burda udanda necə qışqırdımsa, ağzımdakı protez dişlərim də düşdü, ürəyim də getdi. Futbol dəhşətdir. Nəşə futboldan gözəldir, dədə! Nəşə çəkərsən, həkim səni müalicə edər, sağalarsan. Futbolda sağalmaq yoxdur. Mən futbolun xəstəsiyəm. Qol vurulanda qalxdım ayağa, “qooool” qışqırdım, uşaqlar da bir tərəfdən. Bu vaxt qohumlar baxdılar ki, bunlar dəlidir, ya nədir? Hərəsi bir söz deyəndə əsəbiləşdim. Qohumlara da demişəm, futbol olanda mənim evimə heç kəs gəlməsin!

***- Sizcə, çempion kim olacaq?***

- Almaniya. İtalyanlar cəzalanacaq. Türkiyə üçün həlledici olan oyunu kişi kimi uduzmadılar.

***- Bəs hansı komandaya azarkeşlik edirdiniz?***

-Türkiyə və Almaniyaya azarkeşlik edirdim. Türkiyəni sevirəm, amma bilirdim ki, Türkiyənin gücü hara qədərdir. İspanların gözəl oyunu var, italyanlar da çempion ola bilər. Amma baxıram ki, almanlar öz oyununu daha ağıllı qururlar.

***

**Deputatın Qarabağla bağlı dediklərindən:** “Mən ümidliyəm, amma savaş ümidlisiyəm. Sülh-filan mənim inandığım deyil. Quran oxumaqla donuz darıdan çıxmaz. Həm də heç kəs aldığı torpağı elə-belə verməz. Erməni anaları Sərkisyanı cırıq-cırıq eləyər ki, əgər qaytaracaqdınsa, mənim oğlum Ağdamda niyə ölməliydi? Avropa ilə Rusiya qoymur, yoxsa ermənini çoxdan bu torpaqlardan çıxardı. Ona görə də lokal döyüşlərlə torpaqları qaytarmaq lazımdır. Məncə, Azərbaycan konkret vaxt qoymalıdır, vaxtın tamamında savaşa başlamalıdır...”

***

**Söhbət dolanıb Aqil Abbas üçün başağrısına çevrilən, hətta ona ünvanlı təhqirlərə səbəb olan mövzunun üzərinə gəlir. “Türkiyə Rusiyadan üzr istəməlidir” dediyinə görə ünvanına daha nələr deyilməmişdi. Ancaq yenə də fikrində qalır:**

- Rusiya-Türkiyə münasibətlərində bir az yumşalma var. Amma Rusiya qəti şərtini qoyub, Türkiyə də deyir mən o şərtləri icra etməyəcəyəm. İsrail “Mərmərə” gəmisində baş verənlərə görə üzr istədi və Türkiyəyə təzminat verdi. Türkiyə də deyə bilərdi ki, yanlışlıq olub. Təzminat da eləsin 20 milyon. Barışın, getsin də. Burada Türkiyənin xəncərinin qaşımı düşəcək? İsrailin xəncərinin qaşı düşdümü? Türkiyə və Rusiya dostlaşmışdı, qardaşlaşmışdı. Onların arasını vurmaq lazım idi ki, təkləyib ayrılıqda məhv eləsinlər. Ancaq Türkiyə Rusiyasız, Rusiya da Türkiyəsiz yaşaya bilməz. Türkiyə Rusiyanı məhv edə bilər, çünki Rusiyada 30 milyon türk var, bu, sadə məsələ deyil. Bu mənada Rusiya Türkiyəyə möhtacdır. Amma Türkiyə də Rusiyaya möhtacdır, ona görə ki, Rusiyada 30 milyon türk yaşayır, o insanlara sahib çıxmaq lazımdır. Mən istəmərəm Türkiyənin qüruruna toxunulsun, nüfuzdan düşsün. Amma indi nə oldu, məktub yazırsan ki, “təmənna edirəm?” Türkiyə Azərbaycan xaric, hamı ilə düşmən olub, gedib Somalidə, Nigeriyada dost axtarırdı...Kimə lazımdır Nigeriya, ya Somali..?



**Deputat:** “Erməni anaları Sərkisyanı cırıq-cırıq eləyər ki, əgər qaytaracaqdınsa, mənim oğlum Ağdamda niyə ölməliydi?!”

❑ Elşad PAŞASOY
FOTO: MÜƏLLİFindir

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016



# Qızıl hovuz

Zamin HACI
zaminhaci@gmail.com

"Neynirəm o qızıl teşti ki, içinə qan qusacağam"

**(Azərbaycan ata sözü)**

**Bir neçə gün qabaq Naxçıvan hərbi məhkəməsi Naxçıvanda 15 il milli təhlükəsizlik naziri işləmiş Vəli Əsgərovu 14 il azadlıqdan məhrum elədi. Yapistlərə sədaqətlə xidmət eləmişdi, bu 15 ildə yüzlərlə insanı şərləmiş, həbsə atdırmış, qanunsuz izləmiş, dinləmişdi. Bu da axırı... Üzünə tüpürə-tüpürə, işgəncə verə-verə 14 il türmə oxudular. Vəli müəllim bunun neçə ilini yatacaq, bu asılıdır özünü indən belə aparmasından, bir də Vasif müəllimin insafından.**

Təbii, marsiançıkların kosmik gəmilərlə gəlib Azərbaycanda demokratik seçkilər qayırması və hakimiyyət dəyişikliyi etməsi kimi milyonda bir ehtimal da qüvvədə qalır. Ola bilər o zaman yapistlərin yerinə gələn qüvvələr qızıl amnistiya verib müxtəlif cinayətkar ünsürlərlə birgə Vəli müəllimi də buraxsınlar. Necə ki, Elçibəy hakimiyyəti elə bir səhvə yol vermişdi, sonra da həmin ünsürlər Surət-Muratin ətrafına toplaşıb onları yıxmışdılar. Hakimiyyətə gəlmisən, özünə qızıl yığ. Qızıl amnistiya harana yaraşır?

"Qızıl" dedim yadıma düşdü, AMİP lideri Etibar müəllimin sən demə Bakıdakı hotellərin birində hovuzda əbədi çimmək üçün "qızıl kartı" varmış. Bunu təzəlikcə qəzetdə oxudum. Adamı Lefortovoya tutub salanda Azərbaycan xalqı bunun azadlığa çıxması üçün 1 milyon imza toplamışdı, indi isə bir hovuzun kartına möhtac qalıbdır. Hardan hara... Əsl "milli istiqlal" belə olur. *(Bir az da paxıllıqdan yazıram, çünki uşağı üzgüçülüyə yazdırmaq üçün iylənmiş bir hovuz məndən 60 manat pul istəyibdir. Vaxtında milli istiqlal işlərində fəal olmalıydım. Mərkəzi Komitənin ona verdiyi qərargahdakı - indi "Gənclik" metrosu yanında prezident rezidensiyası - hovuzu məktəbli uşaqlara pulsuz istifadəyə ayıran Əbdülrəhman Vəzirova vedrə bağlamaqdan başımız açılırdı ki?)*

Eyni zamanda o vaxtkı milli azadlıq hərəkatımızın - tarix göstərdi ki, təəssüflər olsun, onun adını daha çox "antimilli bazarlıq hərəkatı" qoymalıydıq - reklam şüarlarından biri yadıma düşdü. Deyirdilər müstəqil olaq, neft gəlirləri Moskvaya axmasın, həmin pul özümüzə qalsa Azərbaycan ərazisini neçə millimetr qalınlığında qızıl təbəqə ilə örtərik. Millət də heyranlıqla ağzının suyunu axıdırdı. İndi məlum olur ki, həmin gəlirlər Etibar müəllimin qızıl hovuz kartı alması üçün lazım imiş, bir də xarici deputatlara rüşvət verməyə yarayırmış.

Yeri gəlmişkən, bizim deputatxanada bir komik üzv var, vaxtilə ABŞ-a embarqo qoymağımız haqda qanun projesi yazmışdı, bax, həmin Rövşən müəllim Luka Volonte-yə 2 milyon 390 min avro rüşvət verilməsini belə şərh edib ki, rüşvəti hesabdan hesaba keçirməzlər. Guya rüşvət mütləq ayaqqabı qutusunda, diplomatda-zadda alınmalıdır. Yazığın offşor şirkətlərdən xəbəri yoxdur (guya). İndi dünya elə vəziyyətə gəlib ki, quldurlar oğurluq pulları gizlətmək, "yumaq" üçün min cür hoqqadan çıxır, milyon cür şirkət açır, hesab dəyişdirir. Hətta bunun da xeyri olmur - Luka əkənin başına gələn əhvalat kimi. Rövşən müəllim isə hesabdan dəm vurur.

Halbuki o rüşvəti malalamağın başqa sivil yolu var idi. İtaliya prokurorluğunun açdığı cinayət işində Luka Volonte-nin rüşvəti Baktelekom üzərindən açılan hesabla aldığı göstərilib, yapistlər isə keçənilki Eldar Mahmudov qalmaqalı zamanı Baktelekomun da xeyli vəzifəli şəxsini damlamışdılar. Basıb-bağlamaq olar ki, biz onları elə Luka-ya rüşvət verdikləri üçün tutmuşuq. O qədər belə şeylər eləmişik. Həsən Həsənovdan soruşun, sizə başa salsın.

Sonda Vəli müəllimin kədərli əhvalatına qayıdaraq bir sovet siyasi anekdotunu təzələmək istəyirəm, çünki hazırda Naxçıvan türməsində bunu real yaşayanlar vardır:

"Bir gün türmədə 3 nəfər qarşılaşır. Nə üstündə türməyə düşdüklərini danışırlar.

Biri deyir: Məni Vəli Əsgərov tutdurub.

İkincisi deyir: Məni Vəli Əsgərovun üzünə durmadığıma görə tutublar.

Üçüncü deyir: Mən Vəli Əsgərovam".

# Ankara-Moskva barışığına fərqli reaksiyalar

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinə yazdığı son məktub beynəlxalq aləmin aparıcı mövzusuna çevrilməklə az qala Avropa Birliyinin dağılması ətrafında polemikaları da geridə qoyub.**

Qeyd edək ki, Ankara və Moskvanın barışması Azərbaycanı da çətin seçim qarşısında qalmaqdan xilas edir. Təsadüfi deyil ki, Türkiyənin baş naziri Binəli Yıldırım Rusiya ilə münasibətlərin normallaşmasına göstərdiyi yardıma görə Azərbaycan rəhbərliyinə təşəkkür edib. İyulun 1-də Soçidə keçiriləcək Qara Dəniz Əməkdaşlıq Təşkilatının toplantısında isə Türkiyəni XİN başçısı Mövlud Çavuşoğlu təmsil edəcək ki, bu da iki dövlət arasındakı "buzlar"ın əriməsindən xəbər verir. 29 iyunda isə Ərdoğan və Putin arasında telefon danışığı nəzərdə tutulur. Azərbaycanda Ankara-Moskva münasibətlərinin qurulması istiqamətində atılan addımlara münasibət yekcins deyil.

"Türkiyə ilə Rusiya arasındakı problemin həll olunmağa başlaması, sanksiyalar nəticəsində qırılan və ya zəifləyən iqtisadi əlaqələrin bərpa ediləcəyinə dair verilən mesajlar əlbəttə ki, müsbət hadisədir. Bundan hər iki ölkə fayda götürəcək". **Politoloq Şahin Cəfərli** bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı deyib.

**Lakin o, münasibətlərin bərpası prosesindən qazanclı çıxan və bundan sonra da daha çox qazanc götürəcək tərəfin Rusiya olduğunu düşünür:** "Əvvəla, yazılı üzrxahlıq Türkiyə dövləti və şəxsən prezident Ərdoğan üçün ciddi prestij itkisidir və Rusiya ilə bundan sonrakı münasibətlərdə psixoloji baxımdan bir "əziklik" yaradacaq, ümumən xarici siyasətdə tərəf-müqabillərinin Türkiyəni ciddiyə alması məsələsində problem yaranacaq ki, bu da masaya 0-1 geridə oturmaq mənasına gəlir. Bu baxımdan, hesab edirəm ki, Türkiyə diplomatiyası Rusiya tərəfini prezidentin imzası, möhürü ilə yazılı üzrxahlığa yox, şifahi üzrxahlığa razı salmalıydı - eynilə İsrailin baş naziri Netanyahunun etdiyi kimi".

**Ş.Cəfərliyə görə, məsələnin Türkiyə üçün digər mənfi tərəfi ondan ibarətdir ki, Rusiya sonrakı dövrdə ikitərəfli münasibətlərdə mübahisəli mövzular ortaya çıxarsa, sanksiya hədəsi ilə Türkiyəni geri çəkilməyə vadar edə bilər:** "Məntiq bunu deyir. Türkiyə prezidentinin şəxsi xarakterindəki ötkəmliyə, təkəbbürə, "sınmayan, əyilməyən kasımpaşalı" imicinə rəğmən, bu addıma getməsi bir sıra səbəblərlə əlaqədardır. Mən ilk sıraya geosiyasi problemləri qoyardım. Bu gün Türkiyənin Suriya siyasəti iflasda uğrayıb və dalana dirənib. Ankara bu məsələdə ABŞ-dan gözlədiyi və istədiyi dəstəyi ala bilmədi və artıq Suriyada, xüsusən bu ölkənin şimalında cərəyan edən proseslər Türkiyənin əleyhinə cərəyan edir. ABŞ və Avropa kürd qruplaşması PYD-YPG ilə müttəfiqlik qurub və Ankaranın etirazlarını, maraqlarını ya qulaqardına vururlar, ya da minimal səviyyədə nəzərə alırlar. Yaranmış dalandan çıxış yolu tapmaq üçün Türkiyəyə Suriyadakı başqa bir önəmli



**Şahin Cəfərli:** "Moskva münasibətləri bərpa etməyə həvəsli görünürdü"



**Səyavuş Novruzov:** "Azərbaycan bu münasibətlərin qurulmasında, Ermənistan isə korlanmasında xüsusi rol oynayan ölkələr idi"

oyunçu ilə əməkdaşlıq lazım idi ki, Qərblə yanaşı, digər mühüm oyunçu məhz Rusiyadır. Ankara ilə Moskva arasında bərpa olunacaq siyasi dialoqun 1 saylı mövzusunun Suriya olacağına şübhə yoxdur. Ola bilər ki, Ankara Suriyanın şimalında, Türkiyə sərhədləri boyunca kürd zolağının yaranmasını əngəlləmək, ümumən proseslərin orada kürd dövlətinin yaranması ilə nəticələnməsinin qarşısını almaq üçün Moskvadan dəstək istəsin. Bu məsələdə Ankara ilə Əsəd rejiminin maraqlarının müəyyən qədər üst-üstə düşdüyünü söyləyə bilərik. Moskvanın vasitəçiliyi ilə Ankara ilə Əsəd rejimi arasında qeyri-rəsmi təmasların qurulmasını da mümkün sayıram. Bütün bunlar bəlkə Türkiyə üçün bir çıxış qapısı aralaya bilər, amma son nəticədə Rusiyanın təsiri güclənəcək və qazanan Moskva olacaq".

**Ekspertin fikrincə, Türkiyə Rusiya ilə dostlaşaraq yeqin ki, bu amildən Qərbə qarşı təzyiq vasitəsi olaraq istifadə etməyi də düşünür:** "Lakin bu da təhlükəli yoldur və arzuolunmaz nəticələr verə bilər. Unutmayaq ki, Qərbin və konkret ABŞ-ın əlində Türkiyəyə qarşı təsir-təzyiq vasitələri daha çoxdur. Türkiyə "Su-24" hadisəsindən sonra Rusiyanın ənənəvi nüfuz dairələrinə fəal müdaxilə etməyə başlamışdı, həm Cənubi Qafqazda, həm də Ukrayna ilə bağlı siyasətində Rusiyanı narahat edən, onu qıcıqlandıran mühüm addımlar atırdı. Münasibətlərin bərpasından sonra Türkiyə bu istiqamətlərdə daha ehtiyatlı siyasət yeritməyə və Rusiyanın narahatlıqlarını nəzərə almağa məcbur olacaq. Münasibətlərin yüksək səviyyədə olduğu dövrlərdə məhz belə idi, bəzi istiqamətlərdə Türkiyənin strateji maraqları Ərdoğan-Putin şəxsi dostluğuna qurban verilirdi. Türkiyə son aylarda Rusiyadan enerji asılılığını zəiflətmək üçün aktiv enerji diplomatiyası həyata keçirirdi. Ümid edirəm ki, bu siyasət davam edəcək. Lakin Rusiya "Türk axını"ndan imtina etməyib və bu layihəni reallaşdırmağa çalışacaq. Xüsusən "Şimal axını-2" layihəsinin icrası məsələsində Avropa Birliyi ilə yaranan problemlər Rusiyanı öz qazını satmaq üçün əlavə marşrutlar axtarmağa sövq edir, bu baxımdan Moskva Ankara ilə münasibətləri bərpa etməyə həvəsli görünürdü. Türkiyə ilə bu sahədə əldə olunacaq razılıq AB ilə danışıqlarda Moskvanın əlini gücləndirəcək".

**"Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşı olmasında Azərbaycanın həm rolu var, həm də bu münasibətlər Azərbaycan üçün də çox sərfəlidir". Bu fikirləri isə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov söylədi. Onun sözlərinə görə, Ankara ilə Moskva arasındakı münasibətlərin yaxşı olması, əlaqələrin bərpası hər iki tərəfə sərf edir:** "Bu hadisələrə qədər bu dövlətlər arasında çoxlu sayda ikitərəfli müqavilələr imzalanmışdı, çoxsaylı qarşılıqlı səfərlər olmuşdu. Həm iqtisadi, həm siyasi, həm antiterror məsələləri ilə bağlı birgə fəaliyyət bəzi dairələri narahat etməyə başlamışdı. Onlar təxribata əl ataraq Türkiyə ilə Rusiya arasındakı münasibətlərin soyumasına zəmin yaratmağa çalışdılar. Amma hər iki tərəf başa düşdü ki, münasibətlərin soyuması hər iki dövlətə, o cümlədən region ölkələrinə ziyan vurur. O baxımdan qarşılıqlı addımların atılması ilə münasibətlərin tədricən qaydasına salınması istiqamətində proses başladı. Türkiyə Rusiyanın ən böyük enerji alıcılarından biridir. O cümlədən Türkiyədə rus turistlərin xüsusi çəkisi var və onlar Türkiyənin büdcəsinə xeyli xeyir gətirir. Həmçinin türk iş adamlarının Rusiyadakı fəaliyyəti nəzərə alınarsa, hər iki tərəfin bu addım atması təqdirəlayiqdir".

**S.Novruzov qeyd etdi ki, münasibətlərin istiləşməsində Azərbaycan prezidentinin müstəsna rolu var:** "Azərbaycan prezidentinin uzun müddət hər iki tərəflə apardığı danışıqlar öz bəhrəsini verməkdədir. Azərbaycan bu münasibətlərin qurulmasında, Ermənistan isə korlanmasında xüsusi rol oynayan ölkələr idi".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə hesab edir ki, Türkiyə prezidentinin Rusiya dövlət başçısına məktub göndərməsi iki ölkə arasındakı münasibətlərin inkişafında açar rolunu oynayacaq.** (azvision.az) "Ərdoğan üzərinə düşən vəzifəni yerinə yetirdi. İndi söz Rusiyanındır. Məncə, Rusiya da Türkiyə ilə münasibətlərin normallaşmasında maraqlıdır. Bu baxımdan hesab edirəm ki, yaxın zamanda münasibətlər normallaşacaq",- deyə F.Ağamalı əlavə edib.

❑ Cavid TURAN

# Neva sahillərindəki qapalı danışıqların yeni detalları

**Prezidentlərin Sankt-Peterburq görüşü ilə bağlı yeni detallar üzə çıxmaqdadır. Neva sahillərindəki danışıqlarda məhz mərhələli həll modelinə üstünlük verildiyini atıq erməni mənbələri də təsdiqləməyə başlayıb. Bu xüsusda Qarabağ üzrə erməni ekspert Tatul Alopyanın rəhbərlik elədiyi ANİ Tədqiqat Mərkəzinin mövqeyi diqqət çəkir.**




# Putinin məxfi və aralıq Qarabağ planı - 5 rayon əvəzinə...

## Masa üzərində mərhələli variantın olduğu təsdiqlənir; Levon Ter-Petrosyanı hakimiyyətdən salan 1997-ci il sülh planı geri qayıdır ; **erməni qaynağı:** "Referendum qeyri-müəyyən müddətə saxlanılacaq"; Bakı isə "ikinci erməni dövlətinin yaranmasına imkan verilməyəcək" deyir...

Musavat.com-un minval.az-a istinadən verdiyi xəbərə görə, adıçəkilən mərkəz diplomatik qaynaqlardan aldığı informasiyalara istinadla iddia edir ki, Rusiya hazırda Dağlıq Qarabağa dair aralıq bir həll modeli üzərində işləyir və tərəflərə öz ideyalarını təklif eləməyə çalışır. Bu barədə Verelq.am saytı yazıb.

**Yazıda deyilir:** "Prezident Vladimir Putin və Sergey Lavrov Azərbaycan və Ermənistan hakimiyyətlərini bu nizamlama planı ilə artıq tanış ediblər. Əslində bu plan bir elə yeni də deyil, ancaq əvvəlki təkliflərdən də müəyyən dərəcədə fərqlənir və 1997-ci ildəki mərhələli həll planına yaxındır".

*(Söhbət Ermənistan prezidenti Levon Ter-Petosyanın hakimiyyətinin süqutuna gətirən mərhələli həlldən gedir. O vaxt Per-Petrosyan erməni xalqına müraciətlə demişdi ki, "indi bizə təklif edilənlə razılaşmasaq, vaxt gələcək yalvaracağıq, çünki heç kim bunu bizə verməyəcək". Hərçənd həmin həll modelində referendum söhbəti olmayıb, sadəcə, status məsələsi sonraya saxlanılırdı).*

**Mərkəzə görə, Putinin indiki planı iki paketdən ibarətdir:** "Birinci: erməni qüvvələri 5 rayondan - Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıdan çıxarılır. İkinci: Dağlıq Qarabağ aralıq status alır. Bu status nə Azərbaycanın tərkibinə qayıtmağı, nə də yaxın gələcəkdə müstəqil olmağı nəzərdə tutur".

Erməni qaynağı daha sonra iddia edir ki, "Madrid prinsiplərində" və onun törəməsi olan Kazan sənədində əksini tapan öz müqəddəratını təyin etmə hüququ son nizamlama paketindən çıxarılmayıb. "Lakin referendumun keçirilməsi qeyri-müəyyən müddətə saxlanılır" - nəşr qeyd edib.

"Azərbaycan statusun müəyyən edilməsi qarşılığında ərazilər formulu ilə razıdır, lakin Dağlıq Qarabağı formal da olsa Azərbaycan tərkibində qalmasında təkid edir, çünki ölkə konstitusiyası dəyişdirilə bilməz. Bakı Kazan sənədinə razılıq verərsə, o zaman ilk növbədə öz konstitusiyasını dəyişməli olacaq. Ermənistan isə Qarabağın mərhələdə Azərbaycanın 5 rayonun qaytarılacağını söyləyib. Sitat: "Əvvəlcə 5, sonra 2 rayonun azad olunması və dəhlizin müəyyən edilməsi, daha sonra Qarabağın statusunun müəyyən edilməsi nəzərdə tutulur.

bağın Azərbaycanın tərkibinə qaytarılmasını nəzərdə tutan hansısa varianta razı deyil. Bu üzdən də Rusiya tərəfi yeni yanaşma təklif edir - 5 rayon qarşılığında Qarabağa Madrid prinsiplərində nəzərdə tutulandan daha etibarlı status. Bundan əlavə, Putinin sülh planında Dağlıq Qarabağı Ermənistana birləşdirən Kəlbəcər və Laçın rayonları haqda heç bir söz deyilmir" - sonda müəllif əlavə edir.

***

Əlbəttə ki, erməni mənbəsinin yazdıqlarını yüz faiz həqiqət kimi qəbul eləmək də olmaz. Çünki Azərbaycan tərəfinin də görüşlərlə bağlı, həm də rəsmi səviyyədə bəzi açıqlamaları var. Onları bir daha yada salaq.

Görüşdən sonra öncə Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov Peterburqda mərhələli həll planının razılaşdırıldığını və ilkin Bu istiqamətdə tərəflər prinsip etibarilə razılığa gəldilər".

Bunun ardınca prezident İlham Əliyev Ordu Günündə son Qarabağ danışıqları barədə deyib ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, mərhələli şəkildə həll edilməlidir və Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Bu xüsusda o, ermənilər həmçinin Helsinki Yekun Aktını diqqətlə oxumağa çağırıb. Vyana görüşündə Ermənistan tərəfinin şərtlərinin *(o cümlədən yeni mexanizmlərlə bağlı şərtinin-red.)* qəbul edilmədiyini vurğulayan prezident habelə Sankt-Peterburq görüşünün müsbət nəticələri olduğunu diqqətə çatdırıb. Eyni zamanda onu da bildirib: "Dağlıq Qarabağ məsələsində beynəlxalq hüquq işləmir, lakin bununla belə, Azərbaycan diplomatik və siyasi səylərini davam etdirəcək".

***

Sözsüz ki, Putinin yeni Qarabağ planı Rusiya maraqlarını da özündə ehtiva edir. Bu maraqlar isə sübhəsiz, əsasən münaqişə zonasına sülhməramlı adı altında özünün hərbi qüvvələrini yeritməyi və Azərbaycanı Avrasiya Birliyi layihələrinə cəlb eləməyi, bununla da Qarabağ konflikti hesabına bölgədə daha da möhkəmlənməyi nəzərdə tutur.

Rusiya istəyinə çatacaqmı? Hər halda, vəziyyət deyilən kimidirsə, o zaman Kremlin Azərbaycan və Ermənistan üçün yeni, lakin daha bərbəzəkli bir ilgək hazırladığı istisna deyil.

Ermənistan isə indi ən qəliz durumda görünür. Çünki bir yandan o, yeni müharibədən qorxduğu üçün tələsirsə, ikinci yandan, sürətlə silahlanma yarışında Azərbaycanla rəqabət aparmaq gücündə olmadığını anladığı üçün tələsir. Eyni zamanda əraziləri qaytarmağın onun üçün ağrılı bir proses olacağının fərqindədir.

❑ **Analitik xidmət**

---

**Rusiya, Türkiyə və Azərbaycan mediası (eləcə də sosial şəbəkə mühitləri) bir-birinin bənzəridir, stəkanda fırtına, nəlbəkidə sunami yaratmağı sevir və bacarırlar. Əllərinə bir mövzu düşdümü, ayranı çıxana qədər çalxayırlar.**

**Xalid KAZIMLI**



# Dünya hegemonu və üzrxahlıq rekordsmeni... - ABŞ

Bəlkə də belə olmalıdır. Yəqin ki, başqa, inkişaf etmiş ölkələrdə də nə vaxtsa belə olub. Ancaq bu ölkələrdə çox adi, sıradan şeylərə bu qədər aşırı həssaslıqla yanaşmaq, onu "ölüm-qalım məsələsi"nə çevirmək mərəzi əndazədən çıxmış haldadır.

Budur, Türkiyə-Suriya sərhədi üzərindəki səmada vurulmuş Rusiya təyyarəsi ilə bağlı qalmaqalın 8-ci ayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarına məktub yazaraq, müharibə vəziyyətinə çatmış ikitərəfli münasibətlərin yumşalması, iqtisadi-siyasi-ticari əlaqələrin bir il önceki halına dönməsi üçün addım atıb, amma reaksiyalara baxın.

Rusiya mediası bunu üzrxahlıq məktubu kimi səciyyələndirir, öz eqosunu təmin etmək istəyir. Türkiyə mediası məktubun mətnində "Putindən üzr istəmək" mənası verən ifadələrin olmadığını bildirir, öz eqosunu əzik göstərməməyə çalışır. Azərbaycan mediası isə iki yerə bölünüb, bir hissəsi məsələyə Rusiya prizmasından yanaşır, o biri tərəf Türkiyənin baxış bucağından.

Ortada olan mənzərə isə qayət aydındır. Prezidentlər hər iki tərəf üçün əlverişsiz olan, istər rus xalqının, istərsə də türk xalqının mənafeyinə cavab verməyən durumu dəyişmək istəyir. *(Bir-birinə, eləcə də bizə qonşu olan iki dövlətin münasibətlərinin dostcasına olmasının onlardan çox bizə, Azərbaycana yararlı olması isə daha aşkardır).*

Bəs məsələyə məhəllənin kriminal avtoritetləri səviyyəsində yanaşan, Türkiyə prezidentinin məktubunu "Putin Ərdoğanı sındırdı", "Ərdoğan Putinin qabağından yemədi" səviyyəsində şərh edən insanlar nə düşünürür? Münasibətlər hələ uzun müddət düşmənçəsinə qalmalıdırmı?

Dünyada ABŞ-dan çox başqa dövlətlərdən üzr istəyən ikinci dövlət yoxdur. Olur ki, Pentaqonun qırıcıları Pakistanda mülki əhalini bombalayır, onlarla adam ölür, ABŞ dövləti dərhal prezident və dövlət katibi səviyyəsində üzr istəyir. Eyni şey Əfqanıstanda, İraqda baş verir, ABŞ prezidenti və dövlət katibinin üzrxahlığı gecikmir. Son illərdə ABŞ Yaponiyadan 3-4 dəfə üzr istəyib.

Bu qədər üzr istəməsi ABŞ-ı dünya hegemonluğundan salırmı, onun dövlət ləyaqətini alçaldırmı, nüfuzuna xələl gətirirmi? Əsla belə şey baş vermir. Əksinə, ABŞ bu cür üzrxahlıqlarla yarana biləcək münaqişələrin, gərginliklərin qarşısını alır, düşəcəyi maddi-siyasi ziyanların yarısından qayıdır.

Elə dövlətlər də var ki, onlarda təkəbbür hissi güclüdür, bu kimi məsələlərdə yersiz qürrə, təşəxxüs nümayiş etdirir, düşmən qazanır, təklənirlər.

Bəzən ayrıca götürülmüş bir siyasi fiqurun şəxsi keyfiyyətlərindən asılı olaraq bu və ya digər dövlətlə problem yaranır. Nəticədə dövlət başçısının şəxsi eqosuna görə ölkə milyardlarla dollar ziyana düşür.

Əslində Rusiya təyyarəsinin vurulmasından sonra Türkiyə hökuməti üzrxahlıq etsəydi və vurulmuş təyyarəyə görə təzminat ödəsəydi, bu gün mənzərə tamam başqa olardı.

10-15 milyon dollarlıq "uçaq pulu" bir şey deyildi, əvəzində Türkiyənin aqrar sektoru, tekstil sənayesi, turizm sferası ayrı-ayrılıqda bir neçə milyard dollarlıq zərər gördü.

Bu vəziyyət növbəti ildə də davam edəcəksə, bu, Türkiyənin, eləcə də Rusiyanın ətraf dünyadan on il geri qalmasına səbəb olacaq, yüzlərlə iqtisadi inkişaf, infrastruktur layihəsi maliyyə çatışmazlığı üzündən həyata keçirilməmiş qalacaq, əhali maddi sıxıntılar çəkəcək və sair və ilaxır.

Regionun iki qüdrətli dövlətinin bir-birilə ticarət dövriyyəsini artırmaq, dinc, yanaşı yaşamaq əvəzinə mənasız və passiv hərbi qarşıdurmaya getməsi daha çox bu dövlətlərə rəqib (eləcə də düşmən) olanların işinə yarayır.

Bunu Rusiyada da yaxşı anlayırlar, Türkiyədə də.

Təkcə bu il Türkiyənin NATO-dakı, Avropadakı müttəfiqlərinin rəsmi Ankaranın kürəyinə saplədıqları xəncərin yarası uzun müddət sağalmayacaq. Britaniyanın baş naziri Türkiyənin Avropa İttifaqına 3000-ci ildə də üzv ola bilməyəcəyini bəyan edəndən sonra Almaniya da "erməni genosidi"ni tanıdı, Fransa isə anti-Türkiyə ovqatını daha da sərtləşdirdi, Belçika terrorçu PKK-ya qucaq açdı. Qoca qitənin aparıcı media qurumlarında hər gün Türkiyəni, onun hakimiyyətini haqlı-haqsız "yuyub-sərən", "yıxıb-sürüyən" materiallar verilir. Avropada ciddi-cəhdlə bu ölkəyə qarşı mənfi səciyyəli ictimai rəy formalaşdırılır.

Bunun qarşısında Türkiyə və Rusiyanın barışığa getməkdən, əski günlərə dönməkdən başqa çarələri yoxdur.

Bu baxımdan Ərdoğanın məktubunu, bundan əvvəlki və sonrakı barışıq jestlərini tərəflərdən birinin "sınması" kimi qələmə vermək yanlışdır. Daima öz mənafelərini düşünən qüdrətli Qərb dövlətləri onların hər ikisinin "qəlbini qırıb". İndi bu iki dövlət bir-birinə sarılaraq, bir-birini dəstəkləyərək vəziyyətdən çıxa bilərlər. Onların hər ikisinin bir-birinə ehtiyacı var.

Bizə gəlincə, Azərbaycan Rusiya və Türkiyə arasında etibarlı körpü ola, iki dövlət arasında sözün hərfi və məcazi mənasında tərcüman ola bilər.

Ortada iki böyük, bir neçə də kiçik dövlətin mənafeyi, marağı, iqtişbalı, rifahı, təhlükəsizliyi, milyard dollarlarla ölçülən ticari əməkdaşlığı olandan sonra hansısa bir siyasətçinin o birindən və ya zərərçəkən ailədən üzr istəməsi o qədər xırda şeydir ki, heç müzakirə predmeti olmalı deyil.

Zatən, siyasətçilərin işi daima uzlaşma nöqtələri tapmaq, sazişlər bağlamaqdır. Buraxın, tapsınlar, bağlasınlar.

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

# Özünü asan polkovniklə bağlı daha bir mübhəm

## İlqar Əliyevin intihar işinə xitam verilməsi barədə qərar ailəsinə verilməyib

**"MTN işi" üzrə ilk həbs edilənlərdən biri, Bakı İstintaq Təcridxanasındakı (BİT) kamerasında müəmmalı şəkildə dünyasını dəyişmiş İlqar Əliyevlə bağlı yeni xəbər alınmışıq. Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin (ATM) rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin ölümündən sonra onun barəsindəki cinayət işinə xitam verilməyib. Həmin iş üzrə İ.Əliyevin vəkili olmuş Rəşad Mirmehdizadə ona və müvəkkili olmuş şəxsin ailə üzvlərinə iş üzrə xitam qərarının təqdim edilmədiyini bildirib.**

Yada salaq ki, bir müddət əvvəl İ.Əliyevin BİT-dəki müəmmalı ölüm işinin araşdırılması dayandırılıb. Bu haqda qərar "cinayət tərkibinin müəyyən olunmaması" ilə əlaqələndirilib. Başqa sözlə, İlqar Əliyevi kənardan kiminsə özünü öldürməyə məcbur etdiyini müəyyən etmək mümkün olmayıb. İlqar Əliyevin ölüm işi bir neçə dəfə bir prokurorluqdan digərinə ötürülüb...

Ötən il dekabrın 20-də İ.Əliyevin asılmış vəziyyətdə olan meyitini saxlanıldığı Bakı İstintaq Təcridxanasındakı kamerada aşkarlamışdılar. Bundan sonra fakt üzrə Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanmışdı. Bir neçə gün sonra isə cinayət işi Sabunçu Rayon Prokurorluğundan alınaraq Bakı Şəhər Prokurorluğuna verilmişdi. Bir müddət cinayət işinin materialları Bakı Şəhər Prokurorluğunda saxlanıldı və Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə ötürüldü. Müəmmalı ölümdən ötən 6 aydan bir qədər artıq müddət ərzində istintaqın gedişatı haqda ictimaiyyətə məlumat verilməyib. Rəsmi məlumata görə, İ.Əliyev 2015-ci il dekabrın 20-də 15:55 radələrində saxlandığı Bakı İstintaq Təcridxanasının ikinəfərlik kamerasında intihar edib. Həmin vaxt kamera yoldaşı telefon danışığı hüququndan istifadə etmək üçün kameranı tərk etdiyi qısa müddət ərzində orada tək qalmış İ.Əliyev mələfəni ip formasına salaraq pəncərədəki dəmir barmaqlığa bağlayaraq özünü asıb. Kamera yoldaşı qayıtdıqdan sonra hadisə ilə bağlı dərhal müəssisənin əməkdaşlarına məlumat verib və tibb heyətinin iştirakı ilə İ.Əliyevin həyatının xilas edilməsinə yönələn tədbirlər görülməsinə baxmayaraq, həmin anda ölüm halı artıq baş verdiyindən ona göstərilən tibbi yardım nəticəsiz qalıb. Hadisə barədə dərhal aidiyyəti istintaq orqanlarına, İ.Əliyevin qohumlarına və müdafiəçisinə məlumat verilib. Hadisə yeri Bakı Şəhər Prokurorluğunun əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə müayinə edilib. Fakt üzrə Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanılıb və istintaq aparılırdı.


İlqar Əliyev

Yada salaq ki, İlqar Əliyev Cinayət Məcəlləsinin 302-ci -əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma - qanunsuz dinləmə, 308-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə və 309-cu - vəzifə səlahiyyətlərini aşma maddələri ilə ittiham olunmuşdu. O, "MTN çetesi"nin əsas aparıcı fiqurlarından biri olmaqla qanunsuz göstərişlərin əsas icraçısı kimi tanınırdı. İ.Əliyevin bildiklərini dilə gətirməsi illərlə bağlı qalan səs-küylü cinayətlərin üstünün açılması, həmin cinayətlərin sifarişçilərinin ifşa olunmasına səbəb ola bilərdi.

"MTN çetesi"nin məşhur simalarından olan İ.Əliyevin ölümündən sonra istintaqın onun rəis müavini postunda çalışdığı dövrlə bağlı epizodlar üzrə davam etdirilməsinin hansı prespektivləri var?

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, Cinayət Prosessual Məcəlləsinin 39.1.5 maddəsinin tələbinə görə ölən şəxs barəsində cinayət işinin icraatına ölən şəxsə bəraət verilməsi tələb olunmursa - yəni onun yaxın qohumları cinayət işinin sona qədər davam etdirilməsinə, ölən qohumlarının heç bir cinayətdə əlinin olmadığını israr edir və bəraət verilməsini tələb edirlərsə, iş sona qədər araşdırılmalı, məhkəmədə bəraət məsələsi müzakirə edilməlidir:** "Hazırda İlqar Əliyevin də içində olduğu dəstənin işi üzrə istintaq gedir. Sonda sübutların qiymətləndirilməsi barədə qərar qəbul ediləcək. Yekun qərarda göstəriləcək ki, İlqar Əliyev öldüyünə görə barəsində xitam qərarı verilsin. Təbii ki, qohumları ona bəraət tələb etməsələr, belə bir qərar veriləcək. Əks halda, iş məhkəməyə göndəriləcək".

**Tanınmış hüquqşünas "İlqar Əliyevin əməllərindən zərər çəkən şəxslər onlara vurulmuş ziyanı qanuni şəkildə hansı formada tələb edə bilərlər" sualına belə cavab verdi:** "İlqar Əliyev haqda cinayət işinə xitam bəraətverici əsasla veriləcəyi gözlənilmir. Onun barəsindəki cinayət işinə ittihamedici əsasla xitam verəcəklər. Zərərçəkmişlər bu halda onun barəsində qərarı alıb İlqar Əliyevin hüquqi varislərinə qarşı məhkəmədə iddia qaldırmalıdırlar. İlqar Əliyevin ailəsi varsa, onun həyat yoldaşı, yetkinlik yaşına çatmış övladlarına qarşı iddia qaldırıla bilər. Məhkəmə dövründə məlum olsa ki, İlqar Əliyevin məsələn, 100 min manatlıq əmlakı olub və həmin əmlak ölümündən sonra hüquqi varislərinə keçib, həmin məbləği aşmamaq şərti ilə iddia təmin oluna bilər. Yəni 100 min manatlıq əmlakın məhkəmə İlqar Əliyevin, varisindən tutulub İlqar Əliyevin zərər vurduğu şəxsə verilməsi haqda müvafiq qərar qəbul edə bilər".

**"İttihama görə, İlqar Əliyev vəzifə səlahiyyətlərindən sui-istifadə edib. Yəni o, sahibkarlara qarşı qanunsuzluq edərkən, onların əmlaklarının əlindən alınmasında iştirak edərkən mülki şəxs İlqar Əliyev kimi deyil, Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəis müavini olaraq törədib. Bu halda onun tərəfindən vətəndaşlara vurulan zərəri kim ödəməlidir" sualına M.Baxış belə bir cavab verdi:** "Təhqiqat, istintaq, prokurorluq orqanlarının qanunsuz hərəkətlərinə görə vurulmuş ziyana görə məsuliyyət - qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qətimkan tədbiri kimi həbs etmə, başqa yerə getməmə haqda iltizam tədbirinin qanunsuz seçilməsinə görə qərarı qəbul etmiş vəzifəli şəxsin təmsil etdiyi orqanın üzərindədir. Bu halda zərərçəkənlər MTN-in həm də təhqiqat orqanı olduğuna istinad edib məhkəmədə onlara MTN-in vəzifəli şəxsləri tərəfindən vurulan zərəri tələb edə bilərlər. Onlara dəymiş ziyan dövlət tərəfindən tam ödənməlidir".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Baş nazir "kredit oliqarxları"nın əmlakını satışa çıxardı

## "Globus Plaza", Qaradağdakı Metanol, Şüşə qablar, Fındıq Emalı zavodları və Şəki İpək Kombinatı alıcı tapacaqmı?




**Nazirlər Kabineti Azərbaycan Beynəlxalq Bankının qaytarılmayan milyardlarla manat kreditinin əvəzində girov qoyulmuş və "Aqrarkredit" QSC-yə verilmiş əmlakların satışı üzrə Müsabiqə Komissiyasının yaradılmasına dair qərar verib.**

Virtualaz.org xəbər verir ki, Nazirlər Kabinetinin iyunun 26-da dərc edilmiş qərarına əsasən Beynəlxalq Bankın dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırma tədbirləri haqqında prezident fərmanına əsasən "Aqrarkredit" ASC-yə verilmiş əmlak satışa çıxarılır.

Bu məqsədlə yaradılan müsabiqə komissiyasına maliyyə nazirinin müavini Azər Bayramov başçılıq edəcək. Komissiyanın tərkibinə İqtisadiyyat, Kənd Təsərrüfatı nazirliklərinin, Əmlak Məsələləri Dövlət Komitəsinin və "Aqrarkredit"in nümayəndələri daxildir.

Müsabiqə Komissiyası "Aqrarkredit" ASC-nin əsaslandırılmış təklifləri üzrə əmlakların satılması və ya kənar istifadəçilərə verilməsi barədə qərar qəbul edəcək. Hər bir əmlak üzrə müstəqil qiymətləndirmə də nəzərə alınmaqla ilkin satış qiyməti müəyyən edəcək, əmlakların açıq hərraclarda satışının təşkil edilməsi üçün ixtisaslaşdırılmış təşkilatçıları seçəcək. Qərarda "Aqrarkredit" ASC-yə tapşırılır ki, əmlakların kənar istifadəçilərə verilməsi məqsədilə hazırlıq işləri aparsın, digər vəzifələri həll etsin.

Qeyd edək ki, Beynəlxalq Bankın aktivlərinin sağlamlaşdırılmasına dair fərmandan sonra bankın 5.6 milyard manatlıq problemli aktivləri "Aqrarkredit" ASC-yə verilib. Bura Beynəlxalq Bankdan kredit götürən iş adamlarının həmin kreditlər hesabına inşa etdikləri müəssisələr, daşınmaz əmlak və digərləri də daxildir. Göründüyü kimi, "kredit oliqarxları"nın kütləvi həbsi bankdan götürülmüş kreditlərin geri qaytarılmasına əhəmiyyətli təsir göstərməyib və indi hökumət girov qoyulmuş əmlakın satışa çıxarılmasına dair qərar verib.

Lakin həmin əmlakın satışından əldə edilən gəlirlərin bankın verdiyi kreditlərlə adekvat olacağı ağlabatan deyil. Çünki "kredit oliqarxları"nın bankın vəsaitləri hesabına yaratdıqları müəssisələr, tikdirdikləri daşınmaz əmlak bir sıra səbəblərdən dəyərini itirib. Bura həm iqtisadi şərtlərin pisləşməsi, daşınmaz əmlakın ucuzlaşması, həm həmin müəssisələrin əksəriyyətinin fəaliyyətini dayandırması aiddir. Bir qayda olaraq işləməyən müəssisənin dəyəri işləyən və gəlir gətirən müəssisənin bazar dəyərindən aşağı olur.

Bu baxımdan Beynəlxalq Bankın kreditləri hesabına inşa edilən zavodlar və obyektlər, məsələn, Bakıdakı "Globus Plaza", Qaradağdakı Metanol Zavodu, Şüşə Qablar Zavodu, Zaqatala Fındıq Emalı Zavodu, Şəki İpək Kombinatı kimi hazırda fəaliyyətini dayandırmış müəssisələrin, habelə Hacı İbrahim Nehrəmlinin Xəzər adalarındakı tikintisi yarımçıq qalmış bir neçə yaşayış binasının yeni yaradılan komissiya tərəfindən satışının asan olmayacağı, əldə edilən vəsaitlərin həmin aktivlərə ayrılmış kreditləri bağlamağa kifayət etməyəcəyi aydındır.

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

**Artıq isti yay günləri öz işini görməyə başlayır. Hər keçən gün havanın hərarəti artdıqca ətəklər qısalır, şalvarlar şortiklə əvəz olunur. Ölkəyə gələn əcnəbilərlə yanaşı, yerli vətəndaşlardan da bu cür geyimlərə üstünlük verənlər az deyil.**



# Azərbaycanda "şortik məsələsi"







**Bəhruz Camal:** "Şəriət kişilərin dizdən aşağı ayaqlarının görünməsində problem görmür, amma..."

**Dəyanət Rzayev:** "Əslində bu cür geyimlərə aqressiya göstərən insanların özləri də belə geyinmək istərdi"

**Xalid Kazımlı:** "Millət olaraq rahatlığımızı ad-sana, kənardan baxanların rəyinə qurban verən insanlarıq"

Lakin o da məlumdur ki, əksəriyyət, xüsusilə də kişilərin ayaqlarını açıq qoyan şortik və ya briciləri ayıblayır, bu geyimlərin şəriətə, mentalitetə, əxlaq və tərbiyəyə zidd olduğunu, estetik baxımından da çirkin göründüyünü bildirirlər. Doğrudur, paytaxt Bakıda artıq bu mərhələ bir qədər geridə qalıb. Hətta ötən ilin avqustunda paytaxt sakini olan gənclər şortik geyinən insanlara dəstək olmaq üçün flaşmob da keçirmişdilər. Sosial şəbəkə istifadəçiləri də bu məsələdə dəstək olmaq üçün şortiklə şəkil çəkdirərək paylaşımlar etmişdilər.

Regionlarda, rayon və kəndlərdə isə qadınların nisbətən ayaqlarını açıq qoyan geyimlərə adi yanaşılsa da, bu məsələdə kişilərə ciddi mühafizəkarlıq nümayiş edirlər. Hətta bəzən şəhərdən kəndə dincəlməyə gələn qonaqlar da sərt baxışların, tənqid və atmacaların hədəfinə tuş gəlir. Beləliklə də şortik geyinib ictimaiyyət arasına çıxmaq müşkül məsələyə çevrilir.

Bəs görəsən, geyimlə bağlı azərbaycanlıların mühafizəkarlığının səbəbi nədir? Niyə qadınların ayaqlarını açıq qoyan geyimlər ayıblanmır, kişilərdə isə bu, qəbuledilməzdir? Şəriətdə kişinin ictimaiyyətdə ayağı açıq gəzməsi necə qarşılanır? Bu suallara cavab tapmaq üçün ekspertlərə müraciət etdik.

**İlahiyyatçı Bəhruz Camalın sözlərinə görə, şəriət baxımından kişilərin dizdən aşağı ayaqlarının görünməsində problem yoxdur:** "Amma bəzi əxlaqi baxışlar, cəmiyyətin bunu qəbul edib-etməməsi məsələsi var. Əslində qadınların hicab geyinib, bədən üzvlərini müəyyən mənada örtməsi təkcə onları qapayıb gözlərdən uzaq saxlaması deyil, burda iffət məsələsi var. Eyni yanaşma kişilər üçün də keçərlidir və müəyyən mənada qarşı tərəfin, ümumi ictimai rəyin nəzərə alınması məsələsidir. Təəssüflər olsun ki, inteqrasiyanın inkişafını ancaq geyim tərzlərində və sairə məsələlərdə görürük. Hər bir şəxsin özünün düşüncə və təfəkkür tərzi var. Biz kimisə şortik geyindiyinə görə qınaya da bilmərik, o, həyata bu cür baxışla baxır. Yanlış və ya doğru olması ilə bağlı işimiz yoxdur. Lakin şəxsən mən kişi xeylaqlarının bu cür geyimlərini məqbul hesab etmirəm. Ola bilər ki, bəziləri mənə köhnə fikirli insan kimi baxsın. Amma tarixə də baxanda görürük ki, bizim köhnə kişilərin xalqa, elmə verdiyi bəhrələr müasirlərindən daha çoxdur. Bu, bir faktdır".

**Psixoloq Dəyanət Rzayev isə bu cür fikirlərin paradoksal, məntiqi baxımından absurd düşüncə olduğunu bildirdi:** "Dini nöqteyi-nəzərdən əslində qadının ayağı görünməməlidir. Kişilərdə isə dizdən yuxarı bağlı olmalıdır, dizdən aşağı açıq ola bilər. Bu istidə şalvar geyinmək həm də fiziki olaraq ziyandır. Gərək insan yüngül və rahat geyinsin. Mən şəxsən xarici ölkəyə gedəndə şalvar aparmıram, orada yalnız şorti ilə gəzirəm, brici də geyinməyi xoşlayıram. Lakin bir-iki dəfə Bakıda ictimaiyyət arasında geyinmək istədim, gördüm ki, xüsusən də yaşlı kişilər tərs-tərs baxırlar. Söz deməyə də çəkinirsən ki, konflikt ola bilər. Ona görə öz-özümə dedim ki, heç nə olmaz, burda geyinmərəm. Bizim kişilər ümumiyyətlə kompleksdilir. Bu dərin bir kompleksdir və onunla bacara bilmirlər. Əslində bu cür geyimlərə aqressiya göstərən insanların özləri də bu cür geyinmək istərdilər. Bizdə hər şeyi, münasibəti də geyimlə müəyyən edirlər. Bu anlayışlardan yavaş-yavaş uzaqlaşmaq lazımdır. Sovet dövründə bölgələrdə xeyli inkişaf gedirdi, kəndlərdə klublar təşkil edilirdi və sairə. Amma keçmişə qayıdış oldu. Maarifləndirmə işləri az olduğundan rayonlarda bu cür geridə qalmış anlayışlar davam edir. Düşünmürəm ki, yaxın gələcəkdə bu düşüncə düzəlsin. Buna çox vaxt lazım olacaq. Əgər inkişaf olsa, bölgələrdə 10 ilə müasirləşmə gedər".

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı isə məsələyə bu cür münasibət bildirdi:** "Kənd yerləri bu sahədə çox mühafizəkardır. Hələ uzun müddət elə də olacaq. Dünənə qədər ata-babalarımız yay-qış uzunboğaz xrom çəkmə geyərdilər ki, kişi sandal geyinməz. Rahat deyildi, əziyyətli idi, amma uzunqol köynək, pencək geyərdilər. İndi o qədər də deyil, amma kənd camaatı hələ də şortiki kişi geyimi saymır, elə geyənləri isə hoydu-hoyduya götürür. Heç paytaxt Bakı da şortikgeyənlər şəhəri sayıla bilməz. Biz 6 il öncə mayın əvvəlində Vaşinqtonda olarkən fikir verdik ki, şəhərdə şalvarlı kişi yoxdur, hamısı şortikdəydi. Burda mühafizəkar geyənlərin tam əksəriyyəti isə xarici ölkələrə, kurorta-filana gedəndə mütləq şort geyirlər. Çünki elə rahatdır. Biz millət olaraq rahatlığımızı ad-sana, kənardan baxanların rəyinə qurban verən insanlarıq. Yayın qızmarında qapalı geyməyin isə heç bir dini-fəlsəfi, mənəvi əsası yoxdur. Olsa-olsa estetik motivi var. Çünki şortik hər adama yaraşmır".

❑ Xalidə GƏRAY



## Azərbaycan əhalisinin sayı necə artıb?

**Dövlət Statistika Komitəsinin son hesabatına görə, 2016-cı ilin yanvar-aprel aylarında Azərbaycan əhalisinin sayı 33,6 min nəfər və ya ilin əvvəli ilə müqayisədə 0,3 faiz artaraq mayın 1-nə 9 milyon 739,2 min nəfərə çatıb.**

Azərbaycan əhalisinin sayı ötən il 112,6 min nəfər və yaxud 1,2 faiz artaraq 2016-cı ilin əvvəlinə 9 milyon 705,6 min nəfər olmuşdu.

Transparency.az Dövlət Statistika Komitəsinin saytında Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi 1991-ci ildən bəri əhalinin sayının necə dəyişməsinə nəzər salıb:

1991 - 7 milyon 218,5 min
1992 - 7 milyon 324,1 min
1993 - 7 milyon 440 min
1994 - 7 milyon 549,6 min
1995 - 7 milyon 643,5 min
1996 - 7 milyon 726,2 min
1997 - 7 milyon 799,8 min
1998 - 7 milyon 876,7 min
1999 - 7 milyon 953,4 min
2000 - 8 milyon 32,8 min
2001 - 8 milyon 114,3 min
2002 - 8 milyon 191,4 min
2003 - 8 milyon 269,2 min
2004 - 8 milyon 349,1 min
2005 - 8 milyon 447,4 min
2006 - 8 milyon 553,1 min
2007 - 8 milyon 666,1 min
2008 - 8 milyon 779,9 min
2009 - 8 milyon 897 min
2010 - 8 milyon 997,6 min
2011 - 9 milyon 111,1 min
2012 - 9 milyon 235,1 min
2013 - 9 milyon 356,5 min
2014 - 9 milyon 477,1 min
2015 - 9 milyon 593 min.

## Aprel döyüşlərində ermənilərin dağıtdığı tarixi-dini abidələrin siyahısı açıqlanıb

**Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu il aprelin əvvəlində Ermənistanın təxribatı nəticəsində cəbhəyanı ərazilərdə ziyan görən tarixi-dini abidələrin siyahısını açıqlayıb.**

Komitənin mətbuat xidmətindənAPA-ya verilən məlumata görə, döyüşlər zamanı Ermənistan hərbiçilərinin Ağdam rayonunun Mahrızlı kənd qəbiristanlığına atdığı top mərmiləri nəticəsində 6 qəbir tamamilə dağılıb, 7 qəbrin isə baş və sinə daşları yararsız hala düşüb. Dini Komitənin sədri Mübariz Qurbanlı bununla əlaqədar olaraq, ATƏT-in Minsk Qrupu həmsədrlərinə etiraz məktubu göndərib. Eyni zamanda ölkədə fəaliyyət göstərən dini konfessiyalar dünya ictimaiyyətinə müraciət edib.

**Məlumatda qeyd olunub ki, bu ilin aprel ayının 5-də Ermənistan silahlı birləşmələrinin törətdiyi təxribat nəticəsində Ağdam və Tərtər rayonlarının ərazilərində başqa sahələrlə yanaşı, XIX əsrə aid olan tarixi-dini abidələr də erməni vandalizminə məruz qalıb, bəzi məscidlərə isə ciddi ziyan dəyib:** "Ağdam rayonunun Xındırıstan, Əhmədağalı və Zəngişalı kənd məscidlərinin divarlarında böyük çatlar əmələ gəlib. Tərtərdə atılan top mərmiləri "Cümə" məscidinin divarlarında çatlar əmələ gətirib. Birinci Qarabağ müharibəsi dövründə atılan mərmilərdən biri Tərtər şəhər "Cümə" məscidinin minarələrindən birini zədələyib. Tarix və mədəniyyət abidələrimizin ermənilər tərəfindən dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına ziddir. Dövlət Komitəsi işğal altında qalmış Azərbaycanın tarixi-dini abidələri ilə bağlı məsələni bundan sonra da diqqət mərkəzində saxlayacaq və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması istiqamətində tədbirlərini davam etdirəcək".

Komitə bildirir ki, işğal altındakı torpaqlarımızda təsbit olunan tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır.

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

# Samir Şərifova Mərkəzi Bankdan müavin gətirildi




**Maliyyə nazirinin yeni müavini təyin olunub. Virtualaz.org Maliyyə Nazirliyinə istinadən bildirir ki, Azərbaycan prezidenti İlham Əliyevin 24 iyun 2016-cı il tarixli sərəncamı ilə Emin Zamin oğlu Hüseynov Azərbaycan maliyyə nazirinin müavini təyin olunub.**

Virtualaz.org-un əldə etdiyi məlumata görə, Emin Hüseynov 1974-cü ildə Sumqayıt şəhərində anadan olub. Ali təhsillidir. 1996-cı ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə fərqlənmə ilə bitirib. 1996-1998-ci illərdə ABŞ-ın Florida Ştatı Universitetinin magistraturasını (iqtisadiyyat üzrə) bitirib.

Əmək fəaliyyətinə 1998-ci ildən Dünya Bankının ölkə ofisində iqtisadçı vəzifəsilə başlayıb. 2001-2003-cü illərdə Beynəlxalq Valyuta Fondunun Bakıdakı Daimi Nümayəndəliyində iqtisadçı vəzifəsində çalışıb.

2003-2005-ci illərdə yenidən Dünya Bankının Bakıdakı ofisində iqtisadçı vəzifəsində işləyib.

2005-ci ildə Azərbaycan Respublikası Mərkəzi Bankının Tədqiqatlar və statistika departamentinin direktoru vəzifəsinə təyin olunub.

2009-cu ildə Harvard Universitetinin ictimai idarəetmə üzrə magistraturasını bitirib. 2010-cu ilin fevral ayında Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzinin direktoru - baş direktoru vəzifəsinə təyin edilib.

# Göyçayda saxta pul kəsən dəstə tutuldu

**Azərbaycanda saxta pulların dövriyyəsi ilə məşğul olan qrup zərərsizləşdirilib. Göyçay Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, rayon ərazisində fəaliyyət göstərən Ceyhun Mütəllimova məxsus mağazaya 70 manat saxta əsginaz verib ərzaq məhsulları alan Bakı şəhər sakini, 1962-ci il təvəllüdlü Mövlan Fərhadov, İsmayıllı rayon sakinləri - 1980-ci il təvəllüdlü Təvəkkül İsmayılov, 1963 -cü il təvəllüdlü Eybalı Eybalıyev və 1987-ci il təvəllüdlü Emin Soltanov tutulublar. Onların üzərinə baxış keçirilərkən 4 ədəd 100, 3 ədəd 50, 2 ədəd 20, 2 ədəd 10, 1 ədəd 5 və 6 ədəd 1 manatlıq saxta əsginaz aşkar edilərək götürülüb.**

Habelə Təvəkkül İsmayılovun yaşadığı Gəndov kəndindəki evə baxış zamanı oradan 2 ədəd 100, 10 ədəd 50 və 5 ədəd 20 manatlıq saxta əsginaz, çap qurğusu və digər çap avadanlıqları aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# Maliyyə Palatası dollar satışını dayandıran banklara xəbərdarlıq etdi

**Maliyyə Bazarlarına Nəzarəti Palatası dollar satışını süni surətdə dayandıran və dollar qıtlığı yaradan banklara xəbərdarlıq edib. Fins.az-ın bank mənbələrindən əldə etdiyi məlumata görə, iyunun 25-də Maliyyə Bazarlarına Nəzarət Palatası bankların dollar satışını dayandırması ilə bağlı monitorinq keçirib.**

Nəticədə valyuta satışına süni şəkildə maneə yaradan banklar cəzalandırılıb. Bundan sonra bütün banklarda dollar satışı bərpa edilib. Bu gün banklarda dollar satışı bərpa olunub.

Bank mütəxəssisləri hesab edirlər ki, dollar satışının dayandırılması Mərkəzi Bankın qərarının açıqlanmaması ilə bağlıdır.

"Britaniyada funtun dəyərdən düşməsi dolların möhkəmlənməsinə səbəb olub. Lakin bununla bağlı Mərkəzi Bank hələ də konkret açıqlama verməyib. Ona görə də banklar ehtiyatlı davranmağa məcbur olurlar".

Bundan əlavə, banklarda devalvasiyanın sürətlənməsi ilə bağlı gözləntilər də var. Belə ki, ötən həftə Britaniya funt sterlinqi 10% ucuzlaşıb.

Qarşıdakı günlərdə isə daha 5% ucuzlaşması gözlənilir. Bütün bu amillər banklarda dolların rəsmi məzənnədən artıq satılmasına səbəb olub. Dünən 1 dollar 1,59 manata dəyişdirilib.

Mütəxəssislər həftə ərzində Mərkəzi Bankın məzənnəni bir qədər də artıracağını pronozlaşdırırlar.

# Manat "üşüyür", dollar "qızışır"...

## Ekspertlər bildirirlər ki, manat davamlı olaraq dəyər itirir, dollar isə bahalaşır; Mərkəzi Bank prosesin qarşısını ala biləcəkmi?

**Manat yenidən ucuzlaşmaqdadır. Mərkəzi Bankı 28 iyun tarixinə valyuta məzənnələrini açıqlayıb. Mərkəzi Bankdan verilən məlumata görə, iyunun 28-nə olan rəsmi məzənnələr bülleteninə əsasən, ABŞ dollarının rəsmi məzənnəsi 1,5332 manat təşkil edir. Manata nəzərən avronun məzənnəsi isə 1,6960 manat təşkil edir. 1 türk lirəsi 0,5234 manat, 1 rus rublu 0,0235 manatdır. Ekspertlər yaxın gələcək üçün manatın qiymətini fərqli proqnozlaşdırırlar.**

**Ekspert Elşad Məmmədov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, manata təzyiqlər yaxın aylarda da artmaqda davam edəcək: "Hesab edirəm ki, manatın möhkəmlənməsi ilə bağlı Mərkəzi Bank və digər maliyyə qurumları tərəfindən nəzarətdə olması ilə bağlı verilən bəyanatlar daha çox manata qarşı olan psixoloji təzyiqin azalmasına istiqamətlənib. Lakin real göstəricilər onu deməyə əsas verir ki, hazırkı şəraitdə manata təzyiq artmaqdadır. Və iqtisadi durum, iqtisadi konyuktura göstərir ki, manata son bir-iki ay ərzində təzyiq artmaqda davam edir. Birincisi, respublikanın milli valyutasının formalaşmasında əsas göstərici, əsas şərt olaraq dünya bazarında neftin qiyməti götürülür. Azərbaycanın əsas ixrac məhsulu olan neftin qiymətlərinin hazırkı şəraitdə 50 dollara yaxın olması yaxın dövrdə manata təzyiqin artmasını müşahidə etməyə əsas verir. Hesab edirəm ki, ümumiyyətlə sonuncu baryer olaraq əgər Azərbaycan valyutasının möhkəmlənməsindən söhbət gedirsə, neftin qiyməti 70-80 dollar ətrafında olmasa, manata təzyiq davam edəcək. Mərkəzi Bankın rəhbərliyi bəyanat verdi ki, milli valyutanın möhkəmlənməsinə doğru işlər gedir. Amma digər tərəfdən, Mərkəzi Bankın verdiyi məlumata görə, birinci rübdə tədiyyə balansının göstəricilərinə görə, mənfi saldo müşahidə olunur. Neftin hesabına olan müsbət saldonu xidmət balansında kapital axını ilə bağlı proseslərdə mənfi saldo üstələyir. Ola bilər ki, Mərkəzi Bank Neft Fondunun hərraclarda iştirakı vasitəsilə müəyyən qədər bu prosesin qarşısını alsın. Ancaq bir az uzaq perspektivdə yenə də manata təzyiq artacaq. İlk növbədə onunla bağlıdır ki, neftin indiki qiymətləri manatın möhkəmlənməsinə kifayət etmir. Neftin qiymətlərinə gəldikdə isə aparıcı agentliklər bu ilin sonuna qədər qiymətin 70-80 dollar olacağını proqnozlaşdırmır. Bütün aparıcı agentliklərin proqnozlarında, həm Dünya





Bankının, həm Beynəlxalq Valyuta Fondunun, həmçinin digər qurumların proqnozlarında bu il üçün neftin qiyməti ən çox 50-60 dollar arasındadır. Belə olan halda bizim milli valyutamız olan manata təzyiq artacaq. Manatın möhkəmlənməsindən danışmaq hələ tezdir".

**Ekspert Vüqar Bayramovun sözlərinə görə, valyuta bazarımızda dolların möhkəmlənməsi üçün tam iqtisadi zəmin var:** "Xarici valyutaya tələb yüksək olaraq qalmaqdadır. İndi hərraclarda dollara olan tələbin ən yaxşı halda 20 faizi ödənilir. Deməli, dollar almaq üçün verilən sifarişin böyük əksəriyyətini Mərkəzi Bank və Dövlət Neft Fondu təmin edə bilmir. Bu isə davamlı olaraq manatın dəyər itirməsinə səbəb olur. Hələlik Mərkəzi Bank öz xarici valyuta rezervlərini qorumaq üçün hərraca satıcı kimi qatılmaqda maraqlı görünmür. Amma bu uzun müddət davam edə bilməz. Dövlət Neft Fondunun 2016-cı ildə ümumi xərci 10 milyard 668 milyon manat olacaq. Fond büdcəyə 7 milyard 615 milyon manat transfer edəcək. Deməli, manatla olan öhdəliklərini nəzərə aldıqda fond il ərzində dollara olan tələbi tək və tam ödəyə bilməz. Mərkəzi Bank bütün hallarda yenidən öz valyuta ehtiyatlarını bazara çıxarmalıdır. Bu isə dollara olan tələbi ödəməyə yardım etsə də, rezervlərin azalması fonunda manata psixoloji təzyiqi artıracaq".

**Ekspertin sözlərinə görə, mövcud tələb-təklifi və Mərkəzi Bankın manevr imkanlarını nəzərə aldıqda dollar valyuta bazarımızda möhkəmlənməkdə davam edəcək:** "Hazırda bütün iqtisadi qanunauyğunluqlar dolların güclənməsini şərtləndirir. Top dolların meydançasındadır və dollar bazarda dominatlığını qoruyub saxlamaqda davam edəcək. Deməli, dollar manata nisbətən dəyər qazanmaqda davam edəcək".

**Ekspertlər bildirirlər ki, Böyük Britaniyanın Avropa Birliyindən çıxması maliyyə bazarlarına təsirsiz qalmayacaq. Deputat Vahid Əhmədovun sözlərinə görə, bundan sonra hər şey AB-nin gələcək işini necə quracağından asılıdır:** "Əksər dövlətlər dollarla yanaşı, funt sterlinqlə də işləyirlər. Hazırda ingilis funtu 20 faiz ucuzlaşıb. Yəni bir çox ölkələrdə dönərli valyuta olduğundan son proseslər bu dövlətlərə ciddi mənfi təsir göstərəcək. Bu proses Böyük Britaniya ilə iqtisadi, ticari əlaqələri olan dövlətlərdən də yan keçməyəcək. Ümumiyyətə, AB-nin dövlət siyasəti primitiv olaraq qalacaq".

**Deputat Böyük Britaniyanın AB-dən çıxmasının Azərbaycana təsirlərindən də danışıb:** "Dövlət ehtiyatlarının 5 faizə yaxını funt sterlinqdə saxlanılır. Bu o anlama gəlir ki, Dövlət Neft Fondu ziyana düşə bilər. İkincisi, belə bir siyasi vəziyyətin yaranması manata təzyiqləri artıracaq. O ki qaldı Böyük Britaniya ilə Azərbaycanın ortaq iqtisadi, ticari əlaqələrinə, BP uzun müddətdir ölkədə fəaliyyət göstərir və bu istiqamətdə hər hansı dəyişikliklər gözlənilmir, yəni ciddi problemlər olmamalıdır. Ancaq ümumilikdə son proseslər iqtisadi vəziyyətə təsirsiz ötüşməyəcək". (axar.az)

**Qeyd edək ki, ölkədə bir sıra banklarda dollar qıtlığı yaşanmaqdadır. Artıq bir neçə bank dollar satışını tam dayandırıb. Bəziləri isə dolları limitlə satır. Ekspert Əkrəm Həsənov isə bildirib ki, manatın kəskin devalvasiyası qaçılmazdır:** "Ümumən manatın kəskin devalvasiyası hər bir halda qaçılmazdır. Çünki Mərkəzi Bank onun məzənnəsini süni, manat həcmini sıxmaqla, dollar ehtiyatlarını azaltmaqla saxlayır. Bunun isə əvvəli-axırı var. Uzağı 1 ilə dollar azı 2 manatı vurub keçəcək, bəlkə də daha çox. Amma ola bilər ki, daha da tez olsun. Hər bir halda qlobal maliyyə böhranı şəraitində Azərbaycan kimi ölkələr zəif bənddir. Yaxın aylarda, bəlkə də daha da tez dollar 1,6 məzənnəsinə çata bilər. Britaniyanın Avropa Birliyindən ayrılması bizdəki prosesləri tezləşdirir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

# Gündə 1 saat tıxacda qalmaqla kimlər və necə cibimizə girir?

## Günümüzün bəlası - tıxac və onu yaradan səbəblər barədə bilmədiklərimiz

**Bu günlərdə hamı bir-birinə eyni məsləhəti verir: çox vacib deyilsə, şəhərin mərkəzinə getmə.... Çünki bugünlərdə şəhərin mərkəzinə getmək bir neçə saatını tıxacda, dar yollarda itirmək deməkdir. Xüsusən də Bakı bağlarına gedən yollarda. Axşamı sərin bağında, ağacların altında keçirmək istəyənlər istər-istəməz bir neçə saat tüstülü, benzin qoxulu maşınlarda qalmalı olurlar.**



Nədir bu bəlanın kökü? Beynəlxalq tədbirlər, konsertlər, siyasi konfranslar.... hamısı tıxaca "gəl-gəl" deyir sanki. 21-ci əsrdə dünya bu bəlanı çözməkdə niyə acizdir?

**Ruslar bizdən də dərdlidir, çünki...**

Adətən tıxacdan söz düşəndə hər kəs dünyanın iri şəhərlərində də bu problemin aktual olduğunu təsəlli kimi səsləndirir. Zəruri qeyd yerinə düşər ki, uzun tıxaclarla bağlı statistika, reytinq cədvəli ildən-ilə dəyişir. Amma biz sizə son reytinq cədvəlini təqdim edəcəyik. Britaniya KİV-i dünyanın ən qorxunc tıxaclarının siyahısını hazırlayıb. Bunun üçün dünyanın ən çox yüklənmiş yolları, sürücülərin itirilən vaxtları, habelə itirilən yanacaq miqdarı da hesablanıb. Reytinqə ən yaxın qonşularımızdan olan Rusiya da düşüb. Daha dəqiq desək, paytaxt Moskva bu siyahıda 8-ci yeri tutub. Analitiklər hesab edir ki, orta hesabla 2.5 saat davam edən tıxac Moskvanı heç vaxt bu sahədə "lider" edə bilməzdi.

ABŞ-ın paytaxtı Vaşinqton da çox təvazökar bir yerdə - 14-cü sırada qərar tutub. Bu şəhərin küçələrindəki tıxaclarda ildə 560 milyon litr yanacaq itirilir. Avropa da bu məsələdə heç bir ölkədən geri qalmır. Varşava, Paris və Brüssel bu mənada "uğurlu" üçlük hesab olunur. Məsələn, Paris əhli ildə 70 saatlarını tıxaclarda keçirirlər. Tələsmədən, "Top 15" siyahısını gözdən keçirək, detallara yenidən qayıdarıq:

1) San Paulo (Braziliya)
2) Pekin (Çin)
3) Brüssel (Belçika)
4) Paris(Fransa)
5) Varşava(Polşa)
6) Mexiko (Meksika)
7) Los Anceles(ABŞ)
8) Moskva(Rusiya)
9) London (Böyük Britaniya)
10) Nyu-Dehli (Hindistan)
11) Nyu-York (ABŞ)
12) Yohannesburq (Cənubi Afrika)
13) Banqkok (Tayland)
14) Vaşinqton(ABŞ)
15) Vroslav (Polşa)

**Bir şəhər uzunluğunda tıxac**

Yaxşı, bəs niyə siyahıda birinci yeri San Paulo tutur? 2008-ci ildə bu meqapolisdə uzunluğu 265 kilometrə çatan tıxac qeydə alınmışdı. Ötən 4 ildə isə San Pauloda vəziyyət yaxşılaşmaq əvəzinə daha da pisləşib.

Mütəxəssislər qeyd edir ki, siyahıda ikinci yeri tutan Pekin şəhəri dünyanı tıxac görüntüsü ilə şoka salır. Belə ki, layihə mütəxəssisləri şəhərdəki avtomobil bumunun sürətinə çata bilmədikləri üçün Çinin paytaxtında hərəkət etmək maksimum çətinləşib. Şəhərdə altı dairəvi yol olsa da, burada tıxacların uzunluğu 100 kilometrə çatır.

London isə öz əhalisinə ildə 54 saat tıxacda qalmağı "təklif edir". Amma bir məqamı da qeyd edək ki, beşlikdə olan şəhərlərdə sürücülər tıxac zamanı az da olsa, irəliləyə bilir. Belə ki, parisli ildə 70 saatını tıxacda keçirirsə, bu zaman həm də hərəkət edir. Amma ildə 40 saatını tıxacda keçirən moskvalı hərəkət etmədən maşında yatır. Bu mənada dünya rekordu moskvalılardadır desək, yanılmarıq.

Tarixdəki ən uzun maşın tıxacı 2010-cu ilin 14 avqustunda Pekində yaşanıb. Həmin vaxt tıxac düz 9 gün davam edib. İlk 3 gündə tıxacın uzunluğu 100 kilometr olsa da, növbəti 6 gündə onun uzunluğu 260 kilometrə qədər çatıb. 10 minə yaxın sürücü bu müddəti kart və şahmatın köməyi ilə yola veriblər. Sürücülərin bəzi problemlərini isə yerli satıcılar həll etməyə çalışıblar. Onlar maşınlar arasında gəzərək sürücülərə su, lapşa, salfetka təklif ediblər. Amma onun qiyməti bazar qiymətlərindən iki dəfə baha olub. Həmin günlərdə Pekin şəhər rəhbərliyi hətta tıxaclar olan əraziyə səyyar ayaqyolu da quraşdırıb. Çünki sürücülərin təbii ehtiyaclarını ödəməsi mütləq şərt sayılırdı.

**Tıxacdan qorunmaq üçün maşında hər şey var - üzqırxan, yumşaq balış, su butulkası...**

"Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu" deyiblər. Tıxaclı şəhərdə yaşayış faktı ilə barışan sakinlər artıq problemdən praktik çıxış yolları tapıblar. "Tıxaclı şəhər"lərdə sürücülərin maşını marketi xatırladır - orda hər şey olmalıdır...

San Paulo, Pekinə ilk dəfə gedən qonaqlar hər zaman sürücülərin öz maşınlarında bu qədər çox əşya saxlamasına təəccüblənir. Gününün ən azı 4 saatını tıxacda keçirən bu insanlar maşınlarına üzqırxan maşın, kompüter oyunları, şahmat taxtası, peçenyelər, su butulkaları, yumşaq balışlar.... qoyurlar. Çünki maşın onlar üçün ikinci ev funksiyasını daşıyır. San Paulo şəhər rəhbərliyinə bu tıxaclar ildə 2,3 milyard dollara başa gəlir. Tıxaclar o qədər dözülməz hala çatıb ki, şəhərin varlı sakinləri sürətlə vertolyot almağa başlayıblar və hazırda ölçüsünə görə dünyanın ikinci vertolyot dayanacağı məhz bu şəhərdədir...

Amerikalı nəqliyyat mütəxəssisi Edmon Klark hesab edir ki, tıxacda qalan sürücü təkcə vaxtını yox, pulunu da itirir. Belə ki, Avropada hər sürücü tıxaca görə orta hesabla ildə 1000 dollarını itirir. Bundan başqa, tıxac həm də havanın daha çox çirklənməsi deməkdir. Tıxac vaxtı atmosfer adi vaxtlarda olduğundan 4.5 dəfə artıq zəhərli maddələrlə "zənginləşir".

Azərbaycanla bağlı hesablamalarda da vəziyyət o qədər yaxşı deyil. Məsələn, vaxtilə 100 km yol üçün təxminən 5 manatlıq benzin istifadə olunurdusa, indi bu pula 70-80 km yol gedilir. Ekspertlərin hesablamasına görə, Bakı yollarında hər gün 40-50 min maşın hərəkət edir və tıxaclarda qalan avtomobil gün ərzində kifayət qədər çox benzin işlədir. Türkiyədə isə hər gün tıxacda qalan maşın 2-4 litr artıq benzin işlətməli olur.

Kuryoz hadisələrin siyahısında tıxacda qaldığı üçün şəhər rəhbərliyini məhkəməyə verənlərin hekayəsi də az deyil. Belə ki, Çində xəstəxanaya çatmadan yolda uşağını dünyaya gətirən qadının həyat yoldaşı, Nyu-Yorkda işə gecikib, cərimələnən bank işçisi müvafiq şəhərlərin rəhbərlərini məhkəməyə veriblər. Onlarla belə nümunə verib.

Psixoloqlar isə iddia edir ki, tıxac insanın əsəblərinə əlavə yük gətirir. Bu, nevroz, ürək tutmaları ilə müşayiət olunur. Tıxacda qalan adamın əsəbləri zəifdirsə, bu hal onu isterik həddə də gətirib çıxara bilər. Belə ki, sonu bilinməyən bir gözləmə sürəcinin nəticəsində insan aqressivləşir, əsəbləri tarıma çəkilir və bu, ciddi əsəb xəstəliyinə gətirib çıxara bilər.

Maraqlıdır ki, bu günə qədər dünyada tıxac probleminin həlli üçün xeyli strateji çıxış yolları tapılıb. Amma təəssüf ki, onların çoxu uzun müddət üçün nəzərdə tutulur və problemin həllinə nail olunmur. Çünki yollardakı vəziyyət tez-tez kardinal şəkildə dəyişir və tapılan çözüm yolları da effektivliyini itirir. Ona görə də bəzi çıxış yolları problemi qısa müddətliyinə həll etməyə hesablanmış sayılır.

Bakıda tıxacı yaradan ən böyük səbəb isə alternativ yol anlayışının olmamasıdır. Meqapolislərdə bunu aradan qaldırmaq üçün alternativ yol açıldığı halda, Bakıda mövcud olan yollar da işləkliyini itirir. Ekspertlər deyir ki, tıxac halında sürücülərin istifadə edə biləcəyi əksər məhəlli yollara giriş qapadılıb. Bundan başqa, iri yollarda səkilərin satılmasıdır. Məsələn, 4 sıra maşının hərəkət etməli olduğu yolda məntiqlə 4 zolaq olmalıdır. Amma səkilərin kənarında ticarət mərkəzləri, brend mağazalar açıldığı üçün o səkilər də faktiki həmin obyektlərə satılmış sayılır.

Paytaxtda tıxac yaradan daha bir səbəb də yol qəzaları zamanı sürücülərin davranışıdır. Belə ki, hər qəzadan sonra sürücülər bəzən saatlarla yolun kənarında sığorta şirkəti nümayəndələrinin gəlişini gözləyir. Dünyanın inkişaf etmiş ölkələrində siğorta agentləri hadisə yerinə operativ çatmaq üçün motosikletlə hərəkət etdiyi halda, Azərbaycanda onların istifadə etdiyi nəqliyyat vasitəsi maşındır. Nəticədə qəza yerinə gəlib hadisəni araşdırmalı olan ekspert də başqa bir tıxacda qaldığı üçün problem fəlakət həddinə çatır.

Yolların daim qazıntılı olması, alternativ yolların olmaması da problemdən çıxış yolunu minimuma endirir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 141 (6462) 29 iyun 2016

# Bazarlarda saxta sular tüğyan edir

## Azad İstehlakçılar Birliyinin sədri: "Sular insan orqanizminə uyğun olmalıdır"







**Yay mövsümünün gəlməsi ilə əhalinin içməli suya olan tələbatı da artıb. İsti havada sərinləmək üçün hər kəs mağazaya, ya da köşklərə qaçıb sərinləmək üçün su almaq istəyir. Əhalinin tələbatının artdığını görən işbazlar saxta suların da satışa çıxmasına və buradan pul qazanmağa çalışır.**

Mütəmadi olaraq gündəm mövzusu olan sularla bağlı problemlər təəssüf ki, hələ də öz aktuallığını qoruyur. Mağazalarda hər bir brend suyun, limonadların saxta variantları da var. Adi baxışla və dadı ilə orijinalından seçilməyən sular əhaliyə sırınır. Suların üzərində onun saxlanma və doldurulma müddəti yazılmasa belə, məlumat üçün bildirək ki, əslində rənglənmiş sular doldurulandan 21 gün, rənglənməmiş sular isə 6 aya qədər saxlanıla bilər. Bundan əlavə, suların qiymətində də istehlakçılar aldadılır. Belə ki, suyun qiyməti onun üzərində 40 qəpik göstərilsə belə, 50-70 qəpik arasında satırlar. Bu qiymət xüsusən də köşklərdədir. Mütəxəssislər qazlı sularla bağlı da xəbərdarlıq edir. Məlumat üçün bildirək ki, 1 litr suyu qazlaşdırmaq üçün ona 10 milliqram karbon qazı vurulur. Qazlı içkilərin isə səbəb ola biləcəyi xəstəliklərin sayı kifayət qədərdir.

Maraqlıdır, əhali su alarkən nələrə diqqət etməlidir?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu sahədə istehlakçıların aldadıldığını dedi:** "Sular bazarın ən çox çirklənmiş seqmentidir. Bunun da özəl səbəbləri var. Özəl səbəbin biri budur ki, su qeyri-adi bir məhsuldur. Su yeganə məhsuldur ki, istehlakçı suyu bir-birindən ayırd edə bilmir. Çünki onun dadı, rəngi, qoxusu yoxdur. Mən həmişə deyirəm ki, suya bax, Tanrını dərk elə. Tanrının bu möcüzəsindən Azərbaycanda sui-istifadə olunur. Ən brend suyun belə krantdan süzülmüş saxta variantları var. İlk dəfə Azərbaycan tarixində bir il öncə sularla bağlı analizlərin nəticələrini kütləvi informasiya vasitələrinə verdim və üç yerdən məhkəməyə verildim. Benzindən dəfələrlə baha olan bu, Allahın möcüzəsindən sui-istifadə olunur və insanlar aldadılır. İstehlakçılar sulardan şübhələnməkdə haqlıdırlar. Bəzən elə brend su var ki, onu çaydana töküb qaynadanda ərp verir, elə brend su da var ki, o ərp vermir. Bu onu göstərir ki, suları yaxşı təmizləmirlər. Əhali bilməlidir ki, əslində təmizlənmiş su da zərərlidir. Çox təmizlənmiş su da, bəzən az təmizlənmiş su da zərərlidir. Yəni sular insan orqanizminə uyğun olmalıdır. Əhaliyə məsləhət görərdim ki, suları daim dəyişsinlər. 10 gün əvvəl "Azərsu"nun su təmizləmə qurğularına gedib monitorinq apardım. Ən ilginc yerlərə də gedib baxdım. Məlum oldu ki, "Azərsu" suyu kifayət qədər təmizləyir və çox müasir filtirlər qurulub. Xüsusən də Ceyranbatan suyu yüksək səviyyədə təmizlənir. Bu sudan şüşələrə doldurub satırlar. Su yeganə məhsuldur ki, litri 40 qəpikdən 8 manata qədər fərqlənir. Bu benzindən də baha deməkdir. Çox təəssüf ki, əlində laboratoriya imkanları olan dövlət orqanları bu qiymət fərqini izah edə bilmirlər, yaxud da etmək istəmirlər. Çünki bu H2O-dur. Axı bunun bir-birindən fərqi nədir? Çox təmizlənmiş də, az təmizlənmiş də ziyandır. Ortaq məxrəci Azərbaycanda hələ heç kim tapmayıb. Azad İstehlakçılar Birliyi çalışır ki, ortaq məxrəci tapsın. Suyun təmiz analizini çıxarıb, onun bütün xəritəsini qarşıya qoymaq üçün minimum onun 30 parametrini araşdırmaq lazımdır. 30 parametri araşdıran laboratoriya sahibləri çox təəssüf ki, məsələlərə aydınlıq gətirmirlər".

**Suların plastik qablarda satılmasının zərərlərinə gəlincə isə qurum sədri günün altında plastik şüşələrdə satılan suları almamağı tövsiyə etdi:** "Azərbaycanda plastik karaları məhdudlaşdırmaq üçün 3 ildir ki, komissiya yaradılıb. Azad İstehlakçılar Birliyi də həmin komissiyanın üzvüdür. Plastik qablarda ərzaq məhsullarının, o cümlədən suyun qablaşdırılması, isti şəraitdə saxlanması və satılması arzuolunan deyil. Azərbaycanda əhali plastik qablara üzüm yarpaqları doldurur, hələ üstəlik üzərinə kimyəvi aktiv olan sirkə də tökürlər. Bu, insanların tədricən zəhərlənməsidir. Regionlarda plastik qablarda uşaqlar üçün qida saxlayırlar. Bu yolverilməzdir. Ona görə də plastik qablarda satılan sular gün qabağındadırsa, belə suları almaq məsləhət deyil. Plastik karaları deşsinlər ki, ondan təkrar istifadə etmək mümkün olmasın. Hər bir malın saxlanma şəraitinə uyğun saxlanma müddəti var. Rənglənmiş sular 21 gün saxlanılır, rənglənməmiş sular isə 6 aya qədər saxlanıla bilər. Xüsusi bir şeyi qeyd etmək istəyirəm ki, müasir tipli termoslar, çayniklər çıxıb. Taxırsan, suyu qaynadır. Əhali bilməlidir ki, suyu 2-3 dəfə qaynadıb içmək zərərlidir. Ona ağır su deyilər. Həmin çayniklərdə yaxşı olar ki, o sudan bir dəfə istifadə olunsun".

**Su süzgəci biznesi məsələsinə toxunan E. Hüseynov bu işlə məşğul olan işbazların da əhalini aldatdığını dedi:** "Su süzgəci biznesi ilə məşğul olan insanlar bu vəziyyətdən istifadə edir və primitiv təcrübələr göstərir. Bu yolla da 2-3 min su süzgəci satırlar. Azad İstehlakçılar Birliyi müəyyən resurslar axtarır ki, bu məsələyə aydınlıq gətirsin".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**

## "Nar" abunəçilərin 84%-i müştəri xidmətlərini yüksək balla qiymətləndirib

Gəlin birlikdə böyüyək

**Müştəri xidmətlərinin davamlı inkişaf strategiyasına sadiq qalan "Nar" yüksək müştəri məmnuniyyəti göstəricilərinə nail oldu. Keyfiyyətin təminatı qaydalarına əsasən "Nar" müştəri xidmətlərinə zəng etmiş hər bir abunəçi operator tərəfindən göstərilmiş xidmətlərin keyfiyyətini qiymətləndirmək üçün zəngin sonunda sorğuya yönəldilir. Son nəticələrə əsasən, 84% "Nar" abunəçiləri Çağrı Mərkəzində onlara göstərilən müştəri xidmətlərini ən yüksək balla qiymətləndirmişlər.**

**Bu yüksək göstərici, "Nar" abunəçilərinə göstərilən müştəri xidmətlərinin keyfiyyətinin artırılması, eləcə də innovativ həllərin tətbiqi nəticəsində mümkün olmuşdur. "Nar" abunəçiləri yüksəkkeyfiyyətli müştəri xidmətlərilə özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla "Nar"ın xidmətlərindən yararlana bilər. Qeyd etmək lazımdır ki, "Nar" öz müştəri xidmətlərini bilavasitə sosial media üzərindən təqdim edən ilk və yeganə mobil operatordur.**

**Xatırladaq ki, Çağrı Mərkəzinə (777) zəng edən abunəçilərə göstərilən bütün xidmətlər sosial media üzərindən də təmin edilir. Bunun üçün ayrılan xüsusi komanda yalnız sosial media üzərindən gələn sorğuları cavablayır. Aparıcı sosial media marketinq şirkəti olan socialbakers.com saytının araşdırmalarına görə, son 90 gün ərzində sosial şəbəkələrdə daxil olmuş sorğuların cavablandırılma vaxtına görə "Nar" Azərbaycanda mobil operatorlar arasında birincidir. Abunəçilər bu xidmətlərdən istər nar.az internet səhifəsində olan şəxsi kabinetləri vasitəsilə, istərsə də "Facebook", "Twitter" və digər sosial şəbəkələr üzərindən yararlana bilirlər.**

**Daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.**

# Göz yaşı içindəki...







# Payet

## “Avro-2016”nın ulduz forvardı: “Fransanın ən yaxşı futbolçusu? Yox, o mən deyiləm...”

**“Avro-2016"da elə ilk açılış oyununda ulduzu parlayanlardan biri də Fransa milli komandasının yarımmüdafiəçisi Dimitri Payetdir. UEFA-nın rəsmi EURO2016.com saytı çempionatın hər turundan sonra ən yaxşı oyunçuları müəyyənləşdirir ki, Payet ən yaxşı "beşlik" sırasındadır. Onun ən yaxın təqibçiləri Uels millisinin yarımmüdafiəçisi Qaret Beyl və Eden Azar haqda son yazılarımızda geniş bəhs etmişdik. Bu dəfə isə Payet haqda danışacağıq.**

### Paltar dükanında işləyib

Floran Dimitri Qebek Payet 1987-ci ilin mart ayının 29-da Hind okeanı sahillərində yerləşən Sen-Pyer şəhərində anadan olub. İnternet resurslarında onun atasının Seneqal əsilli köçmən olduğu barədə dəqiqləşdirilməmiş məlumatlar var. Payet futbola doğma şəhərinin “Sen-Filipp” və “Sen-Perruaz” klublarında başlayıb. 4 il “Qavra” komandasının gənclərdən ibarət klubunda oynadıqdan sonra yenidən Sen-Pyerə qayıdıb. 2004-cü ildə Payet “Nant” klubuna keçib. Amma “Nant” Payet ilə həvəskar kontrakt bağladığından çox az qazanırmış. Bu səbəbdən də futbolçu paltar mağazasında işə başlayır. Onun youtubedə (http://www.sport-express.ru/football/euro/2016/reviews/1008812/) piştaxta arxasında roliki də yayılıb.

“Nant”ın əsas heyətinə düşməyi bacaran futbolçu 2005-ci ildə “Bordo”ya qarşı oyunda ilk dəfə meydana çıxıb. İkinci oyunda 88-ci dəqiqədə meydana çıxan Payet “Metsa”nın qapısının torunu sərrast zərbə ilə silkələyir.

2006-cı ilin iyulunda “Sent-Etyen” klubuna keçib. 2008-2009-cu illərdə klubun UEFA kubokları uğrunda qarşılaşmalarında 10 oyun keçirib və 3 qol vurub. 2009-cu ilin iyulunda Payet “Sent-Etyen”dəki müqaviləsini daha 4 il uzadıb. Bu klubda 151 oyunda forma geyinən futbolçu əvvəl “Lill”ə oradan isə Marsel “Olimpik”inə transfer olunub. 2015-ci ildə isə ingilis klubu “Vest-Hem Yunayted”ə keçib. Onun transfer məbləği 15 milyon avrodur. Payetin adı ölkə xaricində oynayan ən yaxşı fransız futbolçu siyahısına daxil edilsə də, mükafatı sonda onun millidəki komanda yoldaşı Antuan Qrizmann alır. Payet 2015-2016-cı il mövsümündə “Vest-Hem”də 12 qol vurub, 15 məhsuldar ötürmə edib.

“L'Equipe”yə müsahibəsində Payet “Olimpik”dən ayrılmasını “satqınlıq” kimin izah edənlərə cavab verib. O deyib ki, Avropa meydanlarında uğur qazanmaq istəyir. “Əgər pula görə getsəydim, çoxdan Qətərdə, ya Dubaydakı klublardan birində olardım” deyə, Payet onu qınayanlara kinayəli cavab verib.

Onun baş məşqçilərlə daima problem yaşadığı deyilir. Məlumatlara görə, bu da daha çox Payetin ağır xarakterindən qaynaqlanır. Futbolçu ilə məşqçilər arasında əsas mübahisələr isə təbii ki, onun ehtiyat oyunçular skamyasında oturdulması səbəbindən baş verib. Payetin komanda yoldaşları ilə də münasibətləri məhz ağır xarakteri səbəbindən heç vaxt hamar olmayıb. Məsələn, 2010-cu ildə “Sent-Etyen”də oynayarkən “Tuluza” ilə qarşılaşmada qalmaqal yaradıb. Belə ki, oyunçu rəqiblə deyil, öz komanda yoldaşı, daha dəqiqi, kapitan Bleza Matyudi ilə dalaşıb, hətta onu yumruqlayıb. Bu qalmaqaldan sonra onu dərhal meydandan çıxarıblar və komandada qurulan yoldaşlıq məhkəməsində sərt qınayıblar.

### Milli komandaya yolunun bağlanması

Dimitri 2010-2011-ci illər mövsümündə ilk 7 turda 7 top vurmaqla Fransa milli komandasının o zamankı baş məşqçisi Loran Blanın diqqətini çəkib. Tezliklə milli komandanın gənclərdən ibarət heyətinə cəlb edilib. 2010-cu ilin 9 oktyabrında o, əsas yığmada Rumıniyaya qarşı ilk oyununa çıxır. Oyunun sonuna yaxın meydana buraxılan Payet məhsuldar ötürmə edir. 2010-cu ildə Avropa çempionatının seçmə oyununda Lüksemburqa qarşı oyunda yenə məhsuldar ötürmə edir. 2010-cu ildə İngiltərəyə qarşı yoldaşlıq görüşündə meydana çıxan Payet bundan sonra 2 il yarım əsas komandanın heyətində meydana çıxa bilmir... “Avro-2016" ərəfəsində Payet müsahibələrində 2015-ci ilin iyunundan milliyə çağırılmamasını özünə dərd etmədiyini söyləyib. "Mən milli komandanın heyətinə düşməsəm belə, buna görə üzülməyəcəm və heç kimi günahlandırmayacam" deyə, o bildirib.

O, Fransa yığmasında ilk qolunu 2015-ci ildə Belçikaya qarşı oyunda vurur. Millinin heyətində 14-cü dəfə forma geyinən Payet yoldaşlıq görüşündə Fransanın qələbə topunu vurur(4:3). 2016-cı ilin payızında o, Rusiya və Kamerun millilərinə qarşı keçirilən yoldaşlıq görüşlərində yenə fərqlənib. “Avro-2016" ərəfəsi Payet artıq Fransa millisinin əsas oyunçularından biri hesab olunurdu.

“Avro-2016"nın açılış oyununda Rumıniya ilə qarşılaşmada Payet Fransa yığması üçün nə qədər vacib oyunçu olduğunu sübut etdi. 89-cu dəqiqədə uzaqdan vurduğu güclü zərbə onu Fransanın az qala milli qəhrəmanı səviyyəsinə qaldırdı. Albaniyaya qarşı ikinci oyunda da o, əlavə olunmuş vaxtda daha bir qol vuraraq komandasının üstünlüyünü möhkəmlətdi.

Onu həm klubda, həm də yığma komandada məhsuldar ötürmələrinə görə “qol assistenti kralı” da adlandırırlar. Payet bu özəlliyinə görə Lionel Messi və Sesk Fabrekasla müqayisə olunur.

### “...Mən deyiləm”

“Rumınlara vurduğum qol həmişəlik yaddaşımda qalacaq. Qoldan sonra göz yaşlarının səbəbi nə idi? Bir neçə ay bundan əvvələdək mənim milli komandada oynayıb-oynamayacağım böyük sual altında idi. Zədə səbəbindən iki ay yaşıl meydanlarda olmasam da, mən klubun heyətində yaxşı mövsüm keçirmişdim və Avropa çempionatında iştirak etməyi çox arzulayırdım. Fransanın ən yaxşı futbolçusu? Yox, o mən deyiləm. Adamlar Antuan Qrizmanndan və Pole Poqbadan danışır. Mən də hesab edirəm ki, milli komandada bu iki oyunçu çox lazımdır”.

### “60 milyon? Bu çox gülməli məbləğdir”

Davam etməkdə olan Avropa çempionatında artıq Payetlə “Çelsi”, “Mançestr-Siti” və PSJ kimi klubların maraqlandığı barədə xəbərlər yayılıb. “Vest-Hem” klubunun kapitanı Mark Nob bu xəbərləri şərh edərkən Payetin klubda qalacağına ümid etdiyini deyib. “O, ”Avro-2016"da ən yaxşılar sırasındadır. Onun yaxşı oyunçu olduğunu biz bilirdik, indi isə bütün Avropa bilir." Futbolçunun nümayəndəsi Mark Makkey Payet üçün 60 milyon funt-sterlinq təklif olunması barədə yayılmış xəbərlərə belə münasibət bildirib: “60 milyon? Bu çox gülməli məbləğdir”.

Onun şəxsi həyatı ilə bağlı məlumatlar azdır. Bilinən budur ki, Payet evlidir, 1 oğlu var.

Payet (eləcə də digərləri) çempionatda qolları sıraladıqca, transfer qiyməti qalxacaq, təbii... Bu kimi böyük turnirlər həm klub menecerləri, həm oyunçular üçün bazardır. Amma burda “xarab malı” heç kimə sırımaq olmaz...












❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 141 (6462) 29 iyun 2016

# Körpə ana bətnində hecaları ayırd edə bilir



Fransız elm adamları tərəfindən aparılan araşdırma 28 həftəlik körpələrin ana bətnində hecaları ayırd edə biləcəyini sübut edib. Beynəlxalq Elmlər Akademiyasında nəşr olunan araşdırmada 12 yarımçıq doğulan körpənin beyin daramaları araşdırılıb. Bundan başqa, 28 həftəlik uşaqlar ana bətnində ikən qadın və kişi səsləri ilə yanaşı, "qa" və "ba" kimi hecaları da ayırd edə bilirlər. Körpələrin ana bətnində eşitmə qabiliyyətini inkişaf etdirən beyindəki eşitmə bölməsi hamiləliyin 23-cü həftəsində meydana gəlir. Alimlər körpələrin ana bətnində eşitmə qabiliyyətinə sahib olduğunu bildirir. Amma indi onların danışıq qabiliyyətini qazanma bacarığının ana bətnində, yoxsa dünyaya gəldikdən sonra yaranması müzakirə olunur.



## Qonşusuna açıqca göndərdi, həbs olundu

Minnesota ştatı məhkəməsi Şaron Lavon Russo adlı qadını qonşusuna açıqca göndərdiyi üçün həbs edib. İki günlük həbs cəzasının səbəbi isə qadının daha öncə ona edilən xəbərdarlığa əhəmiyyət verməməsi olub. Məhkəmə onun qonşularına qarşı hər hansı hərəkət etməsini yasaqlamışdı. Sözügedən yasaq qərarı bir neçə il öncə verilib. Həmin vaxt qonşuları ilə tez-tez dalaşan qadın barəsində məhkəmə ilginc qərar çıxarmışdı: qonşularla hər hansı ünsiyyət həbslə nəticələnəcək.

Aralarında soyuq münasibətlər olmasına baxmayaraq, Şaron Lavon qonşusuna açıqca göndərdiyi üçün məhkəmə qarşısına çıxıb. Qonşusu iddia edib ki, düşmən münasibətlərdə olduğu Şarondan təbrik açıqcası almaq onu qorxudub. Müstəntiq Şaronun 90 gün müddətinə həbsini istəyib. Hakim Qalen Vaa isə insanlar arasındakı sadə olmayan münasibətləri də nəzərə alaraq, bu həbsin 2 günə qədər azaldılması barədə qərar verib.

# Döyülən uşaqda astma, xərçəng və ürək xəstəliyi yaranır

**Əgər uşaq döyülərsə, gələcəkdə onda xərçəng, ürək və astma xəstəliklərinin inkişaf edəcəyi istisna edilmir. Böyük Britaniyanın Plimut Universitetinin bir qrup alimi bu fikirdədir.**

Ekspertlərin fikrincə, fiziki təsir və ya qışqırmaq nəticəsində yaranan güclü stress uşağı xəstəliklərə meylli edə bilər. Həmçinin uşaqlıqda fiziki və ya seksual zorakılığa məruz qalmağın xroniki xəstəliklərə səbəb olduğunu güman etməyə əsas vardır.

Ekspertlər Səudiyyə Ərəbistanında sağlamlığından şikayəti olmayan 250 nəfər yaşlı şəxs arasında sorğu aparmışlar. Alimlər onların uşaqlıq illəri ilə maraqlanıblar. Habelə 150 ürək, 150 xərçəng və 150 astma xəstəsi arasında da sorğu aparılmışdır.

Tədqiqatçılar könüllülərin uşaq yaşlarında nə qədər tez-tez döyülmələri və ya təhqir olunmaları ilə maraqlanıb. Məlum olub ki, xərçəng xəstəsi olan şəxs uşaqlıqda 70 faiz daha çox zorakılığa məruz qalıb. Ürək xəstəlikləri bu ehtimalın 30 faiz artımına, astma isə 60 faizə uyğun gəlib. Universitetin psixologiya məktəbinin professoru Maykl Hiland əmindir ki, gənc yaşda alınan belə mənəvi zədələr insanın həyatında həmişəlik iz qoyur.

Beləliklə, tədqiqat döyməyin tərbiyə üsulu kimi işə yaramadığını göstərib.





## Əri vəsiyyət edib: mən öləndən sonra ancaq səyahət et!

Amerikalı Li Voçtstetter adlıq qadın ərinin ölümündən sonra 7 ilini kruizdə keçirib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. Qadın 1997-ci ildə ərinin ölümündən sonra Floridadakı evini satıb, mərhumun "heç vaxt kruizi dayandırma" vəsiyyətindən sonra hər il səyahətə 160 min dollar sərf edir. Səyahət zamanı qadın 100-dən çox kruizdə olub. 86 yaşlı qadın deyib ki, onu daha çox Asiya ölkələri cəlb edir. Çünki ordakı həyat ABŞ-dakından qat-qat yaxşıdır. Qadının ən çox sevdiyi ölkə isə Türkiyə olub. O, hər dəfə İstanbula gedəndə "Qapalı çarşı"ya baş çəkib maraqlı geyimlər alır. Dediyinə görə, geyim məsələsində hər zaman özünə qırmızı işıq yandırır. Çünki çox paltar alarsa, kayutda onu saxlamağa yeri olmur. 86 yaşlı qadın bu səyahətlər zamanı daha çox nəvələri və üç uşağından ötrü darıxır. O, əzizləri ilə internet vasitəsilə əlaqə saxlayır.




**QOÇ** - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı maneələr çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

**BUĞA** - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla gələcək uğurlarınıza təkan verəcəksiniz.

**ƏKİZLƏR** - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

**XƏRÇƏNG** - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahibləriniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

**ŞİR** - Ünsiyyətdə olduğunuz insanlarla mübahisələr, o cümlədən işlə bağlı uğursuzluqlar sizi yora bilər. Bir az dincəlməyə çalışın. Pulla bağlı problemlərə görə özünüzü çox da üzməyin.

**QIZ** - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlər və bəzi cəhdlərinizin boşa çıxması ovqatınızı aşağı sala bilər.

**TƏRƏZİ** - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin mülayim keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Amma daxili orqanlarınıza nəzarəti də artırın.

**ƏQRƏB** - Yalnız ikitərəfli əməkdaşlıq və sövdələşmələrdə müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Hər bir söhbətdə təşəbbüskarlığı əldə saxlayın.

**OXATAN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Qarşıdakı həftədə atacağınız addımları reallaşdırmaq üçün bu təqvimdən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində isə daha səmimi olun.

**OĞLAQ** - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

**SUTÖKƏN** - Saat 12-yə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyiniz əbəsdir. Təmkinli olmağa çalışın.

**BALIQLAR** - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizə bir qədər diqqət ayırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikanlar daha şəkərli içki içməyəcək



Nyu-Yorkda restoran və kinoteatrlarda böyük ölçüdə şəkərli içkilərin satışına mart ayından etibarən məhdudlaşma gətirilir. Şəhərin səhiyyə idarəsi rəhbəri Thomas Farley deyib ki, şəkərli içkilər şişmanlığın ən böyük qaynağıdır. Bununla belə, sözügedən qadağa mağazaları əhatə etmədiyi üçün bu aksiyanın böyük effekt verəcəyi gözlənilmir. Amma amerikalı həkimlər ümid edir ki, bu yasaq sayəsində insanlar az da olsa, daha normal qidalanma vərdişinə yiyələnəcək. Amerika şişmanlığın aradan qaldırılması üçün silsilə planlar qurur. Çünki şişmanlıq bir çox qarmaşıq xəstəliklərin də carçısıdır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750